**Azərbaycan və Fransa prezidentləri arasında telefon danışığı olub**



Bax 2

**Heydər Əliyev Fondunun təşkilatçılığı ilə UNESKO-nun baş qərargahında Azərbaycan xalçalarının sərgisi açılıb**



Bax 5

**XİN Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin görüşü ilə bağlı açıqlama yayıb**



Bax 6




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 018 (5983) 31 yanvar 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


Bax 3



# Dayanaqlı dünyada Azərbaycan reallıqları

**Prezident İlham Əliyev: "Yalnız iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilər"**



Bax 4

## AŞPA Azərbaycanda parlament seçkilərini müşahidə edəcək

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Frank Şvabenin rəhbərlik etdiyi 25 nəfərdən ibarət nümayəndə heyəti ATƏT-in Parlament Assambleyasının və Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun...



Bax 4

## Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

*Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, yanvarın 30-da Naftalan, Qax, Sabirabad, Laçın, Şəmkir şəhər və rayonlarının sakinləri ilə görüşüblər. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən...*

## "PAST": Ermənistan hakimiyyəti hakimlər üçün "kastinqləri" keçirir?

Bax 7

"Ermənistanda dərc edilən "Past" qəzetinin yazdığına görə, Konstitusiya məhkəməsi ətrafında baş verən proseslər demək olar ki, hər gün yeni "çalarlar" sərgiləyir. SİA xəbər verir ki, adıçəkilən nəşrin yazdığına görə...



## Britaniya mediası çətin durumda

BBC NEWS

Bax 15

*Jurnalist ofisləri bağlanılır, 450 nəfər işdən çıxarılır*



Bax 15

## "Şaban"ın evi yerlə-yeksan oldu

Türk sinemasının unudulmaz ismi, komediya aktyoru, "Şaban" ləqəbi ilə tanınan mərhum Kamal Sunalın Elazığda baş verən və 41 nəfərin ölümü ilə nəticələnən güclü zəlzələ nəticəsində doğulduğu evi yerlə-yeksan olub. SİA "Takvim"ə istinadən xəbər verir ki, Malatyanın Doğanyol...



## Çində koronavirusdan ölənlərin sayı 170-ə çatdı!

Bax 16

**Vladimir Putin Mixail Qusmanı III dərəcəli "Vətən qarşısında xidmətlərə görə" ordeni ilə təltif edib**



Bax 2

**Sosial şəbəkələrdə qanunu pozan insanlarla bağlı məlumatlar ciddi şəkildə araşdırılacaq**



Bax 7

**"Liverpul"dan daha bir tarixi rekord!**



Bax 16

# "Növbədənkənar parlament seçkiləri Azərbaycanın ictimai-siyasi həyatında mühüm hadisədir"

## *Prezident İlham Əliyev ATƏT Parlament Assambleyasının prezidentini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tsereteli qəbul edib.***



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanda qarşıdan gələn növbədənkənar parlament seçkiləri mövzusuna toxunulub, seçkilərin Azərbaycanın ictimai-siyasi həyatında mühüm hadisə olduğu bildirilib, bu seçkilərdə xeyli sayda namizədlərin qeydə alınmasının, müşahidəçilərin fəal iştirakının önəmi vurğulanıb, bu proseslər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən genişmiqyaslı islahatların tərkib hissəsi kimi dəyərləndirilib. Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan rəhbərliyi seçki prosesinin ədalətli, şəffaf, Azərbaycan qanunvericiliyinə və beynəlxalq standartlara uyğun şəkildə keçirilməsi üçün lazımi şəraitin yaradılması istiqamətində bütün tədbirləri həyata keçirib.

# Azərbaycan və Fransa prezidentləri arasında telefon danışığı olub

***Fransa Respublikasının Prezidenti Emmanuel Makron yanvarın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Prezidentin Mətbuat Xidmətinin məlumatında deyilir ki, söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif aspektləri müzakirə edilib, hər iki tərəf əlaqələrin inkişafından məmnun olduqlarını bildirib, iqtisadi sahədə əməkdaşlığın genişləndiyi vurğulanıb.***



Dövlət başçıları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələləri müzakirə ediblər. Prezident İlham Əliyev münaqişənin nizama salınması ilə bağlı Azərbaycanın mövqeyini bir daha Fransa Prezidentinə çatdırıb. Telefon danışığı zamanı, həmçinin regional təhlükəsizlik məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb.



# Vladimir Putin Mixail Qusmanı III dərəcəli "Vətən qarşısında xidmətlərə görə" ordeni ilə təltif edib

Rusiya Prezidenti Vladimir Putin TASS informasiya agentliyinin baş direktorunun birinci müavini, RF Dövlət mükafatı laureatı, Rusiyanın Əməkdar jurnalisti Mixail Qusmanı III dərəcəli "Vətən qarşısında xidmətlərə görə" ordeni ilə təltif edib. AZƏRTAC xəbər verir ki, Mixail Qusman Rusiya kütləvi informasiya vasitələrinin inkişafında böyük xidmətlərinə və çoxillik səmərəli fəaliyyətinə görə RF Prezidentinin fərmanı ilə mükafatlandırılıb.

# "Tam əminliklə deyə bilərəm ki, seçki prosesi qanunvericiliyə uyğun aparılır"

"Azərbaycanda parlament seçkilərinin keçirilməsinə hazırlıq işləri yüksək səviyyədədir". SİA-nın xəbərinə görə, bunu secki-2020.az saytına açıqlamasında MDB müşahidə missiyasının üzvü Oleq Kuleba deyib. O, Azərbaycanın altı regionunda dairə və məntəqə seçki komissiyalarında olduğunu, deputatlığa namizədlərlə görüşdüyünü bildirərək deyib: "Görüşlər zamanı da təşviqatla bağlı heç bir şikayətə və ya neqativ hala rast gəlmədim. Namizədlərin də bir-biri ilə bağlı hər hansı şikayəti qeydə alınmayıb".



O.Kuleba seçkiyə hazırlıq prosesinin onda müsbət təəssürat yaratdığını qeyd edib: "Tam əminliklə deyə bilərəm ki, seçki prosesi qanunvericiliyə uyğun aparılır".

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Xeyrəddin Qocayevin (Xeyrəddin Qocanın) "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasında quş qripi xəstəliyinin qarşısının alınması və bu sahədə bütün qurumların birgə fəaliyyətinin əlaqələndirilməsi üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 16 fevral tarixli 1320 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Goranboy rayonunda əkin sahələrinin və əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün subartezian quyularının layihələndirilməsi və qazılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 may tarixli 237 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Texniki yardım və qrant alınmasına dair sazişlərin bağlanması və təsdiq edilməsi Qaydalarının təsdiq edilməsi haqqında" 2006-cı il 17 aprel tarixli 388 nömrəli, "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası"nın təsdiqi haqqında" 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli, "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 148 nömrəli və "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 18 dekabr tarixli 410 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.



# Dayanaqlı dünyada Azərbaycan reallıqları

## Prezident İlham Əliyev: “Yalnız iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilər”

***Bu, reallıqdır. Hər bir xalqın dünyada tanınmasında, uğurlar əldə etməsində və təbii ki, dünyada cərəyan edən qlobal proseslərin öndə gedənlərinə çevrilməsində liderlərin xüsusi əhəmiyyəti mövcuddur. Liderlik amili elə şəxsiyyətlərə aid olunur ki, onlar xalqın və dövlətin maraqlarını müdafiə etməklə yanaşı, həm də inkişaf etdirir. Məhz bu kimi önəmli faktorun təhlilini apararkən, Azərbaycanın bu siyahıda birinci olması şəksizdir. Çünki Azərbaycanın inkişaf və tərəqqi, eləcə də, xalqın rifahı faktorunda Azərbaycan Prezidenti İlham Əliyev Liderliyi amili mövcuddur. Artıq 15 ildən çoxdur ki, Azərbaycan xalqının etimadı əsasında ölkəyə rəhbərlik edən Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu şaxələndirərək, uğurla reallaşdırması nəticəsində, perspektiv baxımdan əhəmiyyətli nəticələrin əldə olunmasında öz uğurlu sözünü deyir. Məhz Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlar müasir Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, regional gücünü və qlobal əhəmiyyətini kifayət qədər artırmış olub.***

### “Azərbaycanın vahid və dayanıqlı dünyada rolu”

Bu günlərdə dövlətimizin başçısı İlham Əliyevin Davos İqtisadi Forumunda iştirakı və ən əsas məqam isə zirvə toplantısından bir neçə gün öncə Davos İqtisadi Forumunun rəsmi saytında Azərbaycan Prezidenti İlham Əliyevin “Azərbaycanın vahid və dayanıqlı dünyada rolu” sərlövhəli məqaləsinin yerləşdirilməsi, bir daha onu sübut edir ki, Azərbaycan güclü dövlətdir.Çünki Azərbaycan son 16 il ərzində yüksək iqtisadiyyata uğurlu islahatları ilə nail olub. Və bu gün bu islahatların nəticəsində xarici investisiyaları cəlb etməyə nail olub.

Prezident İlham Əliyev məqaləsində “Doing Business 2009” və “Doing Business 2019” hesabatlarında dünyanın lider islahatçı ölkəsi kimi tanındırtdığının qeyd edir. Bildirir ki, Azərbaycanda gerçəkləşdirilən islahatlar nəticəsində, 2007-ci ilin əvvəli ilə müqayisədə 2019-cu ildə ölkə iqtisadiyyatının həcmi 80 faiz, o cümlədən, qeyri-neft sektorunun həcmi 2,1 dəfə, strateji valyuta ehtiyatları 13 dəfə artıb, ölkədə yoxsulluq səviyyəsi 4 dəfədən çox, işsizlik səviyyəsi isə əhəmiyyətli dərəcədə azalaraq 4,9 faizə çatıb. Bu dövrdə respublikamız iki dəfə “Doing Business 2009” və “Doing Business 2019” hesabatlarında dünyanın lider islahatçı ölkəsi olaraq tanınıb.

Məqalədə, həmçinin, diqqətə çatdırılır ki, 2007-ci ildən keçən dövr ərzində ölkəmizə 111 milyard ABŞ dollarından çox xarici investisiya cəlb olunub ki, bu da iqtisadiyyatın bütün sahələrində irəliləyişləri təmin edib. Nəticə etibarilə, Davos İqtisadi Forumunun açıqladığı “Qlobal Rəqabətlilik Hesabatı”nda Azərbaycanın mövqeyi 2006-2007-ci ildə 64-cü yerdə idisə, 2017-2018-ci ildə 137 ölkə arasında 35-ci yerə qədər yüksəlməklə, 2019-cu ildə “Əhalinin elektrik təchizatı səviyyəsi” üzrə dünyada 2-ci yer tutan ölkələr sırasında, “Hökumət tənzimləməsinin yükü” və “Əcnəbi işçilərin işə qəbulunun asanlığı” üzrə 3-cü yerdə, “Hökumətin dəyişməyə cavabdehliyi” üzrə 5-ci yerdə, “Biznesə başlama üçün tələb olunan günlərin sayı” üzrə 8-ci yerdə, “Hökumətin uzunmüddətli strategiyası” üzrə isə 10-cu yerdə qərarlaşıb.

Budur, güclü dövlət, güclü iqtisadiyyat. Məhz güclü iqtisadiyyatın real nəticəsidir ki, Azərbaycan “Doing Business 2020” hesabatı üzrə dünyada 191 ölkə arasında 34-cü yerdə qərarlaşıb.

Göründüyü kimi, Azərbaycan Prezidenti ənənəvi Davos İqtisadi Forumuna hər zaman mühüm önəm verib, forum çərçivəsində keçirdiyi görüşlərdə ölkəmizin regionda həlledici mövqeyə malik aparıcı dövlət kimi tanınmasında əhəmiyyətli rol oynayan məqamlara toxunub. Bir sözlə, Prezident İlham Əliyev Davosda keçirilən gürüşlər zamanı etdiyi çıxışlarda, verdiyi müsahibələrdə təkcə mövcud iqtisadi potensialımız haqda deyil, eyni zamanda, Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın işğalı ilə ölkə iqtisadiyyatına vurulmuş ziyanla bağlı da iştirakçıları ətraflı şəkildə məlumatlandırıb.

### Güclü iqtisadiyyata malik olan dövlət hər şeyə qadirdir

Ümumiyyətlə, Azərbaycan hökumətinin yürütdüyü müstəqil siyasət həmişə birmənalı olub- güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Nəticə göz qabağındadır.

Ölkə Prezidenti dəfələrlə çıxışlarında vurğulayıb ki, Azərbaycan dövləti öz işlərini möhkəm əsaslar üzərində qurur və dövlət iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdirir. Bununla bərabər, sosial məsələlərin həllinə çox böyük diqqət göstərir. Məhz bunun nəticəsində Azərbaycanda sabitlik, əmin-amanlıq hökm sürür, xalq-iqtidar birliyi gündən-günə möhkəmlənir.

Bütün bunlar, onu deməyə əsas verir ki, zəngin təbii ehtiyatlara malik olan, əlverişli coğrafi-siyasi məkanda yerləşən Azərbaycanın beynəlxalq aləmlə əməkdaşlığa töhfələri davamlıdır və yüksək dəyərləndirilir. Şübhə yoxdur ki, Forumdakı müzakirələrdə əldə edilən nəticələr əsasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi Azərbaycanda müstəqil dövlət quruculuğu prosesinə təsirli təkan verən faktorlardan olacaq. Bir sözlə, Azərbaycan bu uğurlu inkişafla daha böyük nailiyyətlərə nail olacaq.

Prezident İlham Əliyev son müşavirədə 2020-ci ilin daha uğurlu il olacağını deyərək bildirib ki, Azərbaycan daha güclü dövlətə çevriləcək.

### “2020-ci ildə Azərbaycan daha güclü dövlətə çevriləcək”

Prezident İlham Əliyevin müşavirənin yekununda söylədiyi fikirlərdə isə, 2020-ci ildən gözləntilər əksini tapıb. Dövlət başçısı qeyd etdi ki, 2020-ci il də uğurla başlayıb: “Bir neçə gün əvvəl, Bakıda iki böyük investorla iki layihə imzalanıb, İcra Müqaviləsi imzalanıb. Bu, bərpa olunan enerji növlərinin yaradılması istiqamətində çox önəmli addımdır. İki böyük elektrik stansiyası tikiləcək - biri külək, biri Günəş. Bu hadisənin önəmi ondadır ki, vəsaiti investorlar qoyacaqlar. Yəni bu, bizə göstərilən inamdır, Azərbaycanın uzunmüddətli inkişafına göstərilən dəstəkdir. İki stansiyanın istehsal gücü 440 meqavat olacaqdır. Bu, çox böyük stansiyalardır, regionda ən böyük Günəş və külək elektrik stansiyalarıdır. Biz özümüz də bərpa olunan enerji növlərini yaradırıq, 50 meqavatlıq stansiya inşa edildi. İndi 84 meqavatlıq stansiyanın layihələndirmə işləri tamamlanır, bunu da, biz edəcəyik. Bizim enerji balansımızda bərpa olunan enerjinin payı hazırda təqribən 17-18 faizdir. Bizim uzunmüddətli strategiyamıza görə, biz bunu, ən azı, 30 faizə çatdırmalıyıq. Onu da bildirməliyəm ki, müsabiqədə 9 şirkət iştirak etmişdir. Yəni özü də 9 ən böyük şirkət Azərbaycana bərpa olunan enerjini istehsal etmək üçün vəsait qoymağa hazırdır. Sadəcə olaraq, iki şirkət seçildi, hansıların ki, şərtləri daha yaxşı idi. Ancaq o demək deyil ki, qalan şirkətlər kənarda qaldılar, biz onları da dəvət edirik. Qoy onlar öz təkliflərinə bir daha baxsınlar, şərtləri bizim üçün, ölkəmiz üçün daha məqbul etsinlər və buyursunlar, onlar üçün Azərbaycanda kifayət qədər yer var. Allaha şükür, Azərbaycan həm Günəşlə, həm küləklə zəngin ölkədir, müasir enerji infrastrukturu var. Yenə də Davosun hesabatında enerjinin əlçatanlığına görə, Azərbaycan dünyada ikinci yerdədir. İxracımız da var, keçən il 60 milyon dollardan çox ixrac etmişik. Ona görə, əminəm ki, bərpa olunan enerji növlərinin yaradılması bizim üçün növbəti prioritet sahə olacaq. Nazirlər Kabinetinə tapşırıram ki, müsabiqədə iştirak etmiş şirkətlərin təkliflərinə baxılsın, onlar dəvət olunsun, onlarla fərdi qaydada danışıqlar aparılsın və onlar da oxşar layihəni Azərbaycanda icra etsin. Bir sözlə, əminəm ki, bu il Azərbaycan uğurla inkişaf edəcək. 2020-ci ildə Azərbaycan daha güclü dövlətə çevriləcək”.

**RƏFİQƏ KAMALQIZI**

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər



***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, yanvarın 30-da Naftalan, Qax, Sabirabad, Laçın, Şəmkir şəhər və rayonlarının sakinləri ilə görüşüblər.***

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib, bütün məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verilib. Bəzi müraciətlər yerində həll edilib. Araşdırma tələb edən müraciətlər nəzarətə götürülüb və onların həlli istiqamətində aidiyyəti üzrə göstərişlər verilib.

Görüşlərdə qeyd olunub ki, müxtəlif ölkələrdə gərginlik, qanlı toqquşmalar, müharibələr, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının kobudcasına pozulması, demokratik dəyərlərin tapdalanması müşahidə olunsa da, Azərbaycan sabitlik məkanı kimi inkişaf edir. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Xalq-iqtidar birliyi, həyata keçirilən siyasətə verilən yüksək qiymət həm iqtidarı daha da ruhlandırır, həm də ölkədə siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir. Artıq 26 ildir ki, Azərbaycan sabitlik şəraitində yaşayır və bu illər ərzində ölkə çox böyük inkişaf yolu keçib.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlmiş bu tədbirlər bir daha təsdiqləyir ki, dövlətimizin başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır.

2019-cu il həm siyasi, iqtisadi, sosial sahələrdə, həm də kadr və struktur islahatları sahələrində dərin islahatlar ili kimi yadda qaldı. Bu islahatlar inkişafımızın bundan sonra daha da uğurlu olacağına imkan verir. 2019-cu ildə ümumi daxili məhsul 2,2 faiz artıb. Qeyri-neft sektorunda bu artım 3,5 faiz təşkil edib. Sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 14 faiz yüksəlib. Kənd təsərrüfatı 7 faiz artıb, bitkiçilikdə bu artım 10 faizdən çox olub. İnflyasiya cəmi 2,6 faiz, əhalinin pul gəlirləri isə 7,4 faiz olub. Qeyri-neft ixracı 14 faiz artıb, valyuta ehtiyatları isə 6,4 milyard dollar çoxalaraq 51 milyard dollara çatıb. Adambaşına düşən valyuta ehtiyatlarına görə Azərbaycan MDB məkanında birinci yerdədir. Xarici ticarət dövriyyəsinin müsbət saldosu isə 6 milyard dollar təşkil edir. İqtisadi sahədə əldə edilmiş nəticələr və rəqəmlər artıq bir daha təsdiqləyir ki, bizim siyasətimiz düşünülmüş və nəticəyə hesablanmış siyasətdir.

Bildirilib ki, 2019-cu ildə Azərbaycanda ən böyük sosial paket reallaşdırıldı. Aparılmış islahatlar çox geniş sosial paketi həyata keçirməyə imkan yaratdı. Həm müasir Azərbaycanın tarixində, həm də MDB məkanında bu dərəcədə böyük sosial paket bu günə qədər reallaşmamışdır. Azərbaycan sovet vaxtından qalmış əmanətlərin qaytarılmasında da vətəndaşlar üçün ən məqbul prinsip tətbiq etdi və bu sahədə də MDB məkanında birinci oldu. 2019-cu ildə həyata keçirilən sosial paket 4,2 milyon insanı əhatə etdi və vətəndaşların maddi vəziyyəti yaxşılaşdı. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz, bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə artırıldı. Sosial sahədə gedən müsbət proseslər və vətəndaşların rifah halının yaxşılaşdırılması prioritet məsələ olaraq qalır. Sosial infrastrukturla bağlı böyük işlər görülüb, 60 tibb müəssisəsi, 84 məktəb tikilib və təmir edilib. Keçən il plandan əlavə 900-dən çox şəhid ailəsinə mənzil təqdim edilib. Şəhid ailələri və Qarabağ əlilləri üçün bu il daha çox ev tikiləcək. Belə ki, bu kateqoriyadan olan şəxslərə 1500 mənzil verilməsi nəzərdə tutulur. Ünvanlı sosial yardımla bağlı 70 faiz artım baş verib, bu proqram 72 min ailəni əhatə edir.

Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulmasının, insanlara layiqli xidmət göstərilməsinin, etik davranış qaydalarına əməl olunmasının vacibliyi vurğulanıb. Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün yaradılan rahat və əlverişli şəraitdən razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

## "Yüksəliş" müsabiqəsində iştirak üçün artıq səkkiz min nəfər qeydiyyatdan keçib

"Yüksəliş" müsabiqəsində iştirak etmək üçün artıq 8000 nəfər qeydiyyatdan keçib. Bu barədə "Yüksəliş" müsabiqəsinin "Facebook" səhifəsi məlumat yayıb. Bildirilir ki, müsabiqənin finalçıları şəxsi inkişaf planları, qabiliyyətlər isə idarəçi rəhbərlərlə çalışmaq imkanı, eləcə də fərdi inkişaf üçün 20 min manat məbləğində qrant əldə edəcəklər.

yüksəliş

# "Parlament seçkilərini ATƏT PA-nın xətti ilə 70-dən çox müşahidəçi izləyəcək"



Yanvarın 30-da Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan ATƏT Parlament Assambleyasının (ATƏT PA) sədri Georgi Tsereteli ilə görüşüb. Milli Məclisin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonağı səmimi salamlayan Oqtay Əsədov bu səfər çərçivəsində keçiriləcək görüşlər Azərbaycan ilə ATƏT PA arasında münasibətlərin inkişafına dəyərli töhfə verəcəyinə ümid etdiyini bildirib.

Qeyd edilib ki, Georgi Tseretelinin ATƏT PA-ya sədrliyi dövründə müstəqil Azərbaycan ilə bu qurum arasında münasibətlər keyfiyyətcə yeni səviyyəyə qalxıb. Qonağın ədalətli mövqeyi, proseslərə obyektiv baxışı sayəsində təşkilatın qurumları ilə əlaqələrimiz normal məcrada inkişaf etməkdədir. Təqdirəlayiq haldır ki, Azərbaycan nümayəndə heyəti tərəfindən qurumda qaldırılmış təşəbbüslər Parlament Assambleyasında dəstəklənib. Azərbaycan gələcəkdə də qurumda fəaliyyətini bu istiqamətdə davam etdirmək niyyətindədir.

Qonağın parlament seçkiləri ərəfəsində ölkəmizə səfər etdiyini vurğulayan Sədr Oqtay Əsədov qurum rəhbərliyinin ölkə əhəmiyyətli bu prosesə diqqətini yüksək qiymətləndirib. Bildirib ki, qarşıdakı parlament seçkilərini ATƏT PA-nın xətti ilə 70-dən çox müşahidəçi izləyəcək. Ümumiyyətlə, parlament seçkilərini izləmək üçün 50 mindən artıq müşahidəçi qeydiyyata alınıb. Onlardan 429-u beynəlxalq müşahidəçilərdir. Spiker deyib ki, Azərbaycanda azad və ədalətli seçkilərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Seçki praktikası və qanunvericilik təkmilləşdirilib. O.Əsədov əmin olduğunu bildirib ki, 9 fevral seçkilərində seçicilər öz iradələrini sərbəst şəkildə ifadə edərək bəyəndikləri namizədə səs verəcəklər. Söhbət zamanı, Oqtay Əsədov qonağın təmsil etdiyi təşkilatın bu siyasi prosesə obyektiv qiymət verəcəyinə inandığını bildirib.

Səmimi qəbula görə minnətdarlığını bildirən ATƏT PA-nın sədri Georgi Tsereteli ölkəmizə səfəri çərçivəsində keçirdiyi görüşlərin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, Milli Məclisin rəhbərliyi ilə artıq mütəmadi xarakter halını almış bu təmaslar münasibətlərimizin inkişaf dinamikasının göstəricisidir. "ATƏT PA Azərbaycan ilə əlaqələrin inkişafında maraqlıdır. Azərbaycan bizim üçün çox önəmli ölkədir", - deyən Georgi Tsereteli Azərbaycan nümayəndə heyətinin təşkilatın işində fəaliyyətindən razı qaldığını vurğulayıb, gələcəkdə də bu fəaliyyətin yüksək səviyyədə davam etdiriləcəyinə əminliyini bildirib.

# AŞPA Azərbaycanda parlament seçkilərini müşahidə edəcək



Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Frank Şvabenin rəhbərlik etdiyi 25 nəfərdən ibarət nümayəndə heyəti ATƏT-in Parlament Assambleyasının və Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun nümayəndələri ilə birgə Azərbaycana səfər edəcək. Secki-2020.az saytında yer alan xəbərə görə, nümayəndə heyəti fevralın 7-dən 10-dək Azərbaycanda olacaq və parlament seçkilərini müşahidə edəcək. Qeyd olunur ki, nümayəndə heyəti namizədlər, partiya nümayəndələri, eləcə də Mərkəzi Seçki Komissiyasının, vətəndaş cəmiyyətinin, KİV-lərin nümayəndələri ilə görüşlər keçirəcək.

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Yanvarın 30-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Komissiyanın 2020-ci il 21 yanvar tarixli iclasının protokolu təsdiq olunub.

Sonra 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə əlaqədar MSK-ya daxil olmuş müraciətlərə baxılıb. Qanunvericiliklə müəyyən olunmuş qaydada və müddətdə iclasa çıxarılan müraciətlər Komissiya üzvləri tərəfindən geniş müzakirə edildikdən sonra müvafiq qərarlar verilib. Beynəlxalq müşahidəçilərin və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda, həmçinin qarşıdan gələn 9 fevral Milli Məclisə seçkilərlə bağlı cari məsələlərə baxılıb.

# ABŞ ticarət missiyası Azərbaycana gələcək



ABŞ-Azərbaycan Ticarət Palatası və Amerika-Gürcüstan Biznes Şurasının birgə təşkilatçılığı ilə ABŞ-Azərbaycan Ticarət Palatasının Vaşinqtonda yerləşən inzibati binasında bu il aprelin 5-10-da ABŞ-dan Azərbaycana və Gürcüstana baş tutacaq ticarət missiyasına həsr edilmiş tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə ticarət assosiasiyalarının üzv və tərəfdaş şirkətləri, ABŞ dövlət qurumlarının nümayəndələri və hər iki ölkənin diplomatik missiyalarının nümayəndələri iştirak ediblər. Tədbirin xüsusi qonaqları qismində Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov və Gürcüstanın İqtisadiyyat nazirinin müavini Genadi Arvaledze iştirak ediblər. ABŞ-Azərbaycan Ticarət Palatasının icraçı direktoru Natiq Baxışov həyat keçiriləcək ticarət missiyası barədə məlumat verib. Daha sonra Azərbaycanın ABŞ-dakı səfirliyinin iqtisadi məsələlər üzrə müşaviri Orxan Zeynalov çıxış edib və ölkəmizə gələcək ticarət missiyasına dəstək ifadə edib. Aprelin 5-10-da ABŞ şirkətlərinin Azərbaycan və Gürcüstana nəzərdə tutulan ticarət missiyası Birləşmiş Ştatların Ticarət Nazirliyi tərəfində sertifikatlaşdırılmış və ABŞ Ticarət Xidməti ilə birgə həyata keçirilir. Missiyanın aprelin 5-dən 7-dək Gürcüstanda, aprelin 8-10-da isə Azərbaycan olması nəzərdə tutulur.

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə UNESKO-nun baş qərargahında Azərbaycan xalçalarının sərgisi açılıb

***Heydər Əliyev Fondu, Azərbaycanın Fransadakı səfirliyi və UNESKO yanında daimi nümayəndəliyinin birgə təşkilatçılığı ilə Parisdə UNESKO-nun baş qərargahında Fondun "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı sərgisinin açılışı olub.***

Sərginin açılışında Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, UNESKO baş direktorunun mədəniyyət məsələləri üzrə müavini Erneste Ottone Ramirez, Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev, UNESKO yanında daimi nümayəndəliyimizin rəhbəri, səfir Anar Kərimov, Fransada akkreditə olunmuş səfirlər, UNESKO-dakı missiyaların rəhbərləri, yerli ictimaiyyətin və Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov sərginin açılışında çıxış edərək "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı layihənin ərsəyə gəlməsindən danışıb. Bildirib ki, 10 il əvvəl Azərbaycan xalça sənəti UNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına, Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında isə "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Bu baxımdan Şəki xalçalarının UNESKO-nun baş qərargahında sərgilənməsi böyük əhəmiyyət daşıyır. O, sərginin UNESKO-nun baş qərargahında təşkilinə göstərdiyi dəstəyə görə qurumun baş direktoru Odre Azuleyə təşəkkür edib.











Daha sonra sərginin açılışında UNESCO baş direktorunun mədəniyyət məsələləri üzrə müavini Erneste Ottone Ramirez, Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev, UNESKO yanında daimi nümayəndəliyimizin rəhbəri, səfir Anar Kərimov da çıxış ediblər. Çıxışlarda Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya və Heydər Əliyev Fonduna sərginin təşkilinə görə təşəkkür edilib.

Bildirilib ki, bu sərgi Azərbaycan mədəniyyətini, xalçaçılığını daha yaxından kəşf etməyə imkan yaradır. Xalça toxuculuğu Azərbaycanın kimliyini əks etdirir. Xalça toxuculuğunun nəsildən-nəslə ötürüldüyü diqqətə çatdırılıb. Şəkinin zəngin mədəniyyət irsindən, ipəkçiliyindən, Azərbaycan memarlığının şedevri olan Xan Sarayından danışılıb. Xalça sənətinin Azərbaycan xalqının estetik və dünyagörüşünü, eləcə də plüralist baxışlarını əks etdirdiyi bildirilib. Diqqətə çatdırılıb ki, bu sənət Azərbaycan xalqının həyatının ayrılmaz hissəsidir.

Qeyd edilib ki, mədəniyyət irsinin qorunub saxlanması və nəsildən-nəslə ötürülməsi UNESKO-nun missiyasıdır. Azərbaycanın dövlət nümayəndələrinə qurumun bu missiyasına göstərdiyi dəstəyə görə minnətdarlıq bildirilib.

Tədbirdə sərgilənən xalçaların toxucularından iki nəfəri, eləcə də Kann sərgisindən ruhlanaraq Azərbaycana gəlmiş və xalça toxumağı öyrənmiş Filip Jüj də iştirak ediblər. Filip Jüj "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı layihənin sakini olduğu Kann şəhərində təşkil edilməsindən məmnunluğunu bildirib və elə həmin vaxtdan Azərbaycan xalçalarına heyran olduğunu vurğulayıb. Diqqətə çatdırıb ki, xalçalarımıza bu heyranlığı onu həmin sərgini hər gün ziyarət etməyə sövq edib. Dəfələrlə sərgidəki xalçaları seyr etdikdən sonra o, Azərbaycana gələrək xalçaçılar yanında təcrübə keçməsindən, xalça toxumağı öyrənməsindən danışıb. Kanna qayıtdıqdan sonra evində dəzgah qurduğunu və artıq iki xalça toxuduğunu deyib.



Sərginin rəsmi hissəsindən sonra tədbir iştirakçıları nümayiş olunan xalçaları seyr edib və motivlər, rənglərlə bağlı fikirlərini bölüşüblər.

Qeyd edək ki, Azərbaycan sənətçiləri, rəssamları Şəki Xan Sarayındakı əsrarəngiz ornamentlərdən, freskalardan ruhlanaraq nəfis və zəngin əsərlər yaradıblar. Sərgidə nümayiş olunan xalçalar da məhz həmin ornamentlərin, Şəki motivlərinin əsasında xalçaçı-rəssam, Xalq rəssamı Eldar Mikayılzadənin eskizləri üzrə iki il ərzində 30 xalçaçı tərəfindən toxunub.

Sərgi ilk dəfə 2019-cu ildə Heydər Əliyev Fondunun Kann şəhərində keçirdiyi Azərbaycan mədəniyyəti günləri çərçivəsində təqdim edilib və bu il ərzində onun bir çox fransız şəhərlərində nümayişi nəzərdə tutulur.

UNESKO-nun baş qərargahında təşkil olunan sərgi fevralın 4-dək davam edəcək.




# AŞPA-nın mətbuatımızla bağlı yanlış və qərəzli mövqeyi

## Dəlil yox, sübut yox... "qətnamə" var

***Yenə də hədəf Azərbaycandır. Guya ki, başqa bir müzakirə ediləsi məsələ yoxdur. Yenə də eyni oyun, eyni hücum. Azərbaycanda hər hansı bir mötəbər tədbirin və yaxud da seçkilərin keçirilməsi ərəfəsi, nəyin bahasına olursa-olsun, Cors Soros adlı qoca tülkünün havadarlığı ilə bir qrup ermənipərəst deputatlar başlayırlar Azərbaycana qarşı dişlərini qıcıtmağa. Bu da, səbəbsiz deyil. Çünki ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun gündən-günə artması, regionda söz sahibinə çevrilməsi hər zaman onları narahat edib.***

Xüsusilə də, son illər Azərbaycanda aparılan siyasi və sosial-iqtisadi islahatlar, xalqın rifahının günü-gündən yüksəldilməsi istiqamətində dövlət başçısının verdiyi sərəncamlar, dövlət idarəçiliyində yeni standartların tətbiqi, əfv fərmanı və amnistiyalar həmin qüvvələrin özlərini məhv edəcək. Çünki Azərbacan geriyə yox, irəliyə doğru getməkdədir. Qara yaxmaq, heç bir sübut olmadığı halda qətnamə qəbul etmək? Bunu Azərbaycan xalqı heç vaxt qəbul etmir və etməyəcək də. Çünki xalq 16 ildir ki, uğurlu inkişafın şahidi olmaqla, nailiyyətlərinin nəticəsini də görür.

### Azərbaycan mediası azad söz və ifadə reallığı əsasında fəaliyyət göstərir

Yanvarın 29-da AŞPA-nın KİV-in azadlığına və jurnalistlərin təhlükəsizliyinə dair qəbul etdiyi 2317 saylı Qətnamədə Azərbaycana qarşı əsassız tənqidlərin səsləndirilməsi, əslində, yenə də köhnə bayatılarıdır. Əvvəlkilərə kimi, heç bir sübutu olmayan bir daha bu qurumun ölkəmizə qarşı növbəti qərəzi olduğunu təsdiqləyir. C.Soros kimi məkrli adamın əsas məqsədi müstəqil siyasət yürüdən dövlətlərdə iğtişaşlar, qiyamlar yaratmaq, həmin ölkələri müti köləyə çevirmək və dünya ictimaiyyətində Azərbaycan haqda mənfi obraz yaratmaqdır. Azərbaycan kimi müstəqil dövlətlərin varlığı bu tip adamları həmişə narahat edir.

### Əli Əhmədov: "AŞPA-nın Azərbaycana qarşı qərəzli mövqedən çıxış etməsi yenilik deyil"

Sözügedən məsələ ilə bağlı Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının İcra katibi Əli Əhmədov özünün "Facebook" səhifəsində yazıb ki, AŞPA zaman-zaman Azərbaycana qarşı qərəzli mövqedən çıxış edib: "Avropa Şurası Parlament Assambleyasının zaman-zaman Azərbaycana qarşı qərəzli mövqedən çıxış etməsi yenilik deyil. Bu barədə dəfələrlə deyilib, səbəbləri göstərilib. Lakin AŞPA-nın dünən Avropada KİV-in azadlığına və jurnalistlərin təhlükəsizliyinə dair qəbul etdiyi 2317 saylı Qətnamədə Azərbaycana qarşı əsassız tənqidlərin səsləndirilməsi, onu söyləməyə əsas verir ki, qurumun ölkəmizə qarşı qərəzi xroniki hal alıb".

Bütün bunların fonunda AŞPA-nın yuxarıda qeyd olunan qətnaməsində Azərbaycan hakimiyyətini jurnalistlərə qarşı "repressiyalara" son qoymağa çağırması təəccüb doğurmaya bilməz. Təkcə onu demək kifayətdir ki, Avropanın nüfuzlu beynəlxalq qurumlarından biri olan AŞPA özünün uydurduğu "repressiyaların" nədən ibarət olmasını aydın şəkildə izah edə bilmir. Azərbaycana qarşı "ittihamları" əsaslandırmaq üçün bu mötəbər qurumun istifadə etdiyi 2 "arqumenti" nümunə olaraq gətirmək istəyirəm. Birinci arqumentin mahiyyəti ondan ibarətdir ki, jurnalistlərə qarşı istənilən sanksiyaların tətbiq edilməsi dayandırılsın. Belə bir təklifin (yaxud tələbin) səsləndirilməsinin insan hüquqları və qanunun aliliyi prinsipləri baxımından nə dərəcədə doğru və ədalətli olmasını buraxaq vətəndaşların öz mühakiməsinə. Belə çıxır ki, AŞPA Azərbaycanı hansısa niyyətlər xatirinə tənqid etmək naminə jurnalistləri ayrıca bir kastaya ayırmaq dərəcəsinə qədər qeyri-demokratik yanaşma nümunəsi ortaya qoymaqdan belə çəkinmir. Əgər jurnalist qanunları pozursa, cinayət törədirsə, digərlərinə qarşı böhtan atır, günahsız insanları ən ağır şəkildə təhqir edirsə, deməli, onlara qarşı heç bir hüquqi tədbir görülə bilməz və görülməməlidir. Bəs belə olan halda, jurnalistin əməlləri nəticəsində, təhqir olunan və mənəvi terrora məruz qalan insanların hüquqları necə qorunmalıdır?"

YAP sədrinin müavini Əli Əhmədov onu da bildirib ki, AŞPA-nın məlum qətnaməsində Azərbaycana qarşı "iddia" həm də jurnalistlərin dövlət tərəfindən mənzillə təmin olunması kimi absurd arqumentə əsaslanır: "Guya hakimiyyət bu yolla jurnalistləri ələ alır. Azərbaycanda mənzilə ehtiyacı olan bir çox kateqoriyadan olan insanlar dövlət tərəfindən mənzillə təmin olunur. Bunların ən çoxsaylısı məcburi köçkünlərdir. Hər il Azərbaycan dövləti məcburi köçkünlərin evlə təmin olunması üçün yüz milyon manatlarla vəsait ayırır. Xatırlatmaq yerinə düşərdi ki, əhalinin bu kateqoriyasının məskunlaşdığı şəhərciklərin sayı, artıq 100-ü keçib. Yaxşı olardı ki, AŞPA, üzvü olduğu Azərbaycanın əhalisinin 10 faizinin, 1 milyon insanın Ermənistanın təcavüzü səbəbindən məcburi köçkün vəziyyətinə düşməsinə diqqəti çəkəydi, təcavüzkarın geri oturdulması, ədalətin bərpa edilməsinə azacıq töhfə verəydi. Lakin bunu etmək əvəzinə, Azərbaycanı tənqid etmək üçün bəhanələr axtarır və olmayanda isə uydurur".

### "AŞPA-nın jurnalistlərin mənzillərlə təmin olunmasına siyasi don geydirməyə çalışır"

Əli Əhmədov, onu da bildirib ki, AŞPA əsaslanmamış faktlar olmadan hər şeyə siyasi don geydirməyə adət edib: "Onu da, deməliyəm ki, Azərbaycana qarşı təcavüzün qurbanları olan Qarabağ müharibəsi şəhidlərinin ailələri və əlilləri də dövlət tərəfindən mənzillərlə təmin olunur. Digər kateqoriyadan olan əhali də var ki, onlar da dövlətin güzəştli mənzillər proqramından faydalana bilirlər. Bütün bunlar Azərbaycan dövlətinin sosial siyasətinin ayrı-ayrı istiqamətləridir və AŞPA-nın jurnalistlərin mənzillərlə təmin olunmasına siyasi don geydirməyə çalışması, yumşaq desək, təəccüb doğurur. Ən azından, obyektiv yanaşma onu tələb edir ki, jurnalistlərə qayğı göstərməyə çalışan Avropa qurumu Azərbaycan hakimiyyətinin bu addımını təqdir etməli idi. Lakin AŞPA-nın Azərbaycana qarşı məlum mövqeyi əvvəlcədən proqramlaşdığından, onun alqoritmində hər hansı müsbət yanaşmaya yer yoxdur və jurnalistlərin mənzilə olan ehtiyaclarının ödənilməsinə dövlət yardımı mahiyyətcə, sosial ədalət baxımından, təqdirəlayiq hadisə olmasına rəğmən, sözügedən qurumun tənqidinə tuş gəlib. Görünür, AŞPA-nın qərar qəbuletmə mexanizmində anti-Azərbaycan alqoritmi var. Belə olmasaydı, qurum Azərbaycanda jurnalistlərə və onların fəaliyyətinə münasibəti qiymətləndirərkən, dövlət tərəfindən mövqeyindən asılı olmayaraq, bütün KİV-lərin borclarının dəfələrlə silinməsi ilə ələqədar qəbul etdiyi qərarlar sözügedən qətnamənin qəbul olunmasına səs verənlərin yadına düşərdi. Lakin AŞPA qərarverənləri bu barədə susurlar, çünki onlara, nəyin xatirinə olur-olsun, ölkəmizi və hakimiyyəti tənqid etmək üçün "arqument" lazımdır".

### "Hər cür qərəz, ilk növbədə, AŞPA-nın nüfuzuna zərbə vurur"

Əli Əhmədov Avropanın sözügedən mötəbər qurumunun belə qərəzli olmasını həmin qurumun nüfuzuna böyük zərbə vurduğunu da söyləyib: "Lakin hər cür qərəz ilk, növbədə, AŞPA-nın nüfuzuna zərbə vurur, onun səviyyəsini aşağı salır və obyektivliyinə şübhə yaradır. Arzu edərdik ki, Azərbaycanın da üzv olduğu beynəlxalq təşkilat daşımalı olduğu missiyanı ləyaqətlə yerinə yetirsin, konyukturaya uymasın, ədalətsiz və qərəzli olmasın. Demək istədiyim başqa bir şey də var. AŞPA-nın qərəzli qətnaməsi radikal müxalifəti, deyəsən, yaman sevindirib. Az qala toy-bayram edirlər. Nədənsə, Azərbaycana qarşı haradasa problem yaradılırsa, ölkəmizə kimlər tərəfindənsə iftiralar uydurulursa, radikallar sevinir. Görünür, vaxtilə bolşeviklərin tətbiq etdiyi taktikanı yaxşı mənimsəyiblər, ona görə də, hər vəchlə çalışırlar ki, müxtəlif hesabatlarda Azərbaycan haqqında tənqidlər səsləndirilsin. Ancaq başa düşə bilmirlər ki, bizim üçün ən vacibi xalqın rəyidir. Xalq isə, öz dövlətini sevir, Prezident İlham Əliyevə inanır və Onun siyasətini qətiyyətlə dəstəkləyir".

***RƏFİQƏ KAMALQIZI***

# Leonid Slutski: AŞPA öz məruzəçiləri ilə Azərbaycanın konstruktiv əməkdaşlığını qiymətləndirib



Avropa Şurasının Parlament Assambleyası (AŞPA) guya Azərbaycanda mövcud olan siyasi məhbusların məsələlərinə dair qətnaməsində bu ölkənin AŞPA məruzəçiləri ilə əməkdaşlığını əslində yüksək qiymətləndirib. AZƏRTAC TASS agentliyinə istinadla xəbər verir ki, bu fikri Rusiyanın AŞPA-dakı nümayəndə heyətinin üzvü, Dövlət Dumasının Beynəlxalq işlər komitəsinin başçısı Leonid Slutski yanvarın 30-da qəbul edilmiş sənədi jurnalistlərə şərh edərkən səsləndirib.

Siyasətçi deyib: "Azərbaycanda siyasi məhbusların məsələlərinə dair məruzə bu mövzuda indiyədək təqdim edilmiş sənədlərlə müqayisəyə gəlmir. Səməd Seyidovun başçılıq etdiyi Milli Məclisin nümayəndə heyətinin sahmanlı, sistemli və peşəkar işi sayəsində bu dosyenin destruktiv təsirini aradan qaldırmaq və bütövlükdə assambleyada Bakıya qarşı gərginlik dərəcəsini keyfiyyətli şəkildə azaltmaq mümkün olub".

Slutskinin fikrincə, "Azərbaycan nümayəndə heyəti Avropa Şurasına daxil olduğu illər ərzində assambleyanın "funksional arxitekturasına" qoşulmağa bu gün əvvəlkindən daha çox nail olub". O hesab edir ki, bu, AŞPA-nın siyasi məhbuslara dair məruzəçisi ilə əməkdaşlığa da aşkar təsir göstərib. Slutski etiraf edib: "Deməliyəm ki, məruzə tənqidi alınıb, orada həqiqətə uyğun olmayam bəzi məlumatlar var".

Dövlət Dumasının komitə başçısı diqqəti belə bir məsələyə cəlb edərək deyib: "Azərbaycanda siyasi məhbuslar yoxdur. Biz dəfələrlə bunu bəyan etmişik və assambleyada, onun hüdudlarından kənarda bəyan edəcəyik. Lakin bununla belə, deməliyik ki, bu gün qəbul edilən qətnamə layihəsi Azərbaycan rəhbərliyinin və parlamentinin Avropa Şurası ilə əməkdaşlıq istiqamətində işini mahiyyət etibarilə müsbət qiymətləndirir. Azərbaycan Respublikasının nümayəndə heyətinin AŞPA ilə əməkdaşlığının və Azərbaycana dair müxtəlif növ keyslərin hazırlanmasının leytmotivi də mifik siyasi məhbuslar deyil, məhz budur". Slutski "Azərbaycan nümayəndə heyətini gözəl işi münasibətilə" təbrik edərək fikrini bu sözlərlə tamamlayıb: "Əminəm ki, ən yaxın gələcəkdə Azərbaycanın fəaliyyətinə dair hər hansı mənfi ştrix qalmayacaq".

# XİN Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin görüşü ilə bağlı açıqlama yayıb



Yanvarın 28-30-da Cenevrədə ATƏT-in Minsk qrupunun həmsədrləri və qurumun fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin görüşü olub.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Cenevrə görüşü son illər ərzində tərəflər arasında ən intensiv müzakirələrin aparıldığı görüş olub.

Tərəflər həmsədrlərin təqdim etdikləri gündəlik üzrə hərtərəfli müzakirələr aparıblar. Bu sırada 2019-cu il ərzində irəli sürülmüş təkliflər və əldə olunmuş razılıqların, xüsusilə iki ölkə əhalisinin sülhə hazırlanması üçün humanitar mübadilələrin həyata keçirilməsi, həmçinin münaqişənin tənzimlənməsinin əsasını təşkil edən prinsip və elementlər, xüsusilə də münaqişənin Helsinki Yekun Aktının prinsipləri və müddəaları əsasında həlli və nəhayət, münaqişənin həlli prosesinin daha da intensivləşdirilməsi məsələlərinin qeyd etmək lazımdır. Bu xüsusda, nazirlər yaxın zamanda yenidən görüşməyə razılaşıblar.

# Bu gün Azərbaycan gəncliyi “Qızıl Dövrünü” yaşayır

*Ənvər Haqverdiyev: “Biz firavan dövrümüzün, təməl daşları min bir əziyyətlə atılmış, yüzlərlə sınaqdan çıxmış bir nəslin müasirləriyik”*

***“Gənclik hər bir cəmiyyətin lokomotivi və aparıcı qüvvəsidir. Gənclərin qüvvəsindən, demək olar ki, hər bir sahədə istifadə etmək, onların potensialından faydalanmaq mümkündür”. Bu fikirləri “Səs” qəzetinə açıqlamasında YAP Suraxanı rayon təşkilatının məsləhətçisi Ənvər Haqverdiyev bildirib.***



Qeyd edib ki, gənclik o zaman cəmiyyətdə real qüvvəyə - faydalı iş əmsalına çevirilə bilir ki, onun gücü, qüvvəsi, kreativliyi təcrübə və siyasi iradə ilə birləşsin, ən yüksək səviyyədə gənclər qayğı və diqqətlə əhatələnsin. O halda, gənclər cəmiyyəti öz nurları hesabına işıqlandıra bilərlər: “Biz xoşbəxt dövlətin xoşbəxt vətəndaşları, xoşbəxt gəncləriyik! Çünki öz firəvan dövrümüzün, təməl daşları min bir əziyyətlə atılmış, yüzlərlə sınaqdan çıxmış bir nəslin müasirləriyik. Gələcəyin, məhz gənclərin əlində olduğunu yaxşı bilən Ulu Öndər hələ Sovet hakimiyyəti illərində Müstəqil Azərbaycanın gələcək kadr ehtiyatını hazırlayır, keçmiş SSRİ-nin ən nüfuzlu universitetlərinə azərbaycanlı tələbələri göndərir, onların yetişib, Azərbaycana qayıtmalarına və öz xalqına faydalı olmalarına böyük diqqət yetirirdi. Ölkəmiz müstəqil olduqdan sonra, məhz həmin kadrlar hər bir sahədə Müstəqil Azərbaycanın inkişafına öz töhfələrini verdilər və verməyə davam edirlər”.

Ulu Öndər Heydər Əliyev Şah əsəri olan müstəqil Azərbaycan Respublikasının təməl daşlarını qoyduğu ilk illərdə, məhz gənclərlə bağlı Fərman imzalamasını, gənclərin qurultayının çağırılmasını və onların mövcud problemlərinin dinlənməsini və operativ şəkildə öz həllini tapmasını böyük tarixi hadisə olduğunu bildirib: “Ulu Öndər Heydər Əliyev, siyasi kursunun ən layiqli davamçısı Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, gənclər sahəsində də Ulu Öndər Heydər Əliyev siyasi xəttinə sadiq qalaraq, bu sahənin misilsiz inkişafına səbəb olmuşdur. Cənab İlham Əliyevin dəmir iradəsi, uzaqgörən siyasəti və gənclərə olan yaxın, dost münasibəti sayəsində bu gün Azərbaycan gəncliyi özünün “Qızıl Dövrünü” yaşayır”.

“Bilirsinizmi, həqiqət müqayisədə ortaya çıxar” deyən Ə.Haqverdiyev qeyd edib ki, bugünkü gəncliyimizin imkanlarını özümüzdən əvvəl yaşamış nəsillərin gəncliyinin imkanları ilə bir tutmaq olmaz. Bu gün Azərbaycan gəncliyinin hər tərəfli qayğı ilə əhatə olunduğunu bildirib. Gənclərin böyük təhsil imkanları, dövlət idarə etməsində aktiv rolu onlara dövlətmiz tərəfindən yaradılan şəraitdir. İstər dövlət qulluğu olsun, istərsə də, seçkili orqanlarda gənclərin təmsil olunma faizinə görə Azərbaycan nəinki öz regionunda, eyni zamanda, bütün dünyada hörmətə layiq yerlərdən birinə malikdir.

Ə.Haqverdiyev qeyd edib ki, Azərbaycanın dünyanın ən sabit ölkələrindən biridir və dünyada sözünə etibar edilən, dünya miqyaslı layihələrin həyata keçirildiyi, etimad olunan dövlətlərdəndir: “Azərbaycan dünya miqyasında bir çox siyasət, iqtisadiyyat, idman və mədəniyyət sahələrində keçirilmiş tədbirlərə ev sahibliyi edib. Bu tədbirlərin hazırlanmasında, gələn qonaqların öz milli qonaqpərvərliyimizə uyğun qarşılanıb, yola salınmasında, dünyaya Azərbaycan brendinin tanıdılmasında, Azərbaycan həqiqətlərinin, Qarabağ, Ermənistan-Azərbaycan münaqişəsinin dünya birliyinə çatdırılmasında gənclərimizin rolunun çox böyükdür”.

“Mən ötən il Gənclər Günü ilə bağlı Prezidentlə görüşün iştirakçısı olmuşam” deyərək, ötən bir ildə dövlət başçısının gənclərin qarşısında qoyduğu hədəflərə çatması üçün həm gənclər tərəfindən, həm də, dövlət orqanlarının onlara münasibəti nöqteyi-nəzərindən böyük dəyişiklik olduğunu bildirib: “Şəxsən Prezidentin könüllülüklə bağlı çağırışından sonra bir çox mərkəzi və yerli icra hakimiyyətləri və özəl təşkilatlarda könüllü gənclərə imkanlar yaradıldı. Bu prossesə qoşulmuş bir neçə gənc dostumuz, hətta işlə təmin olunmuşdur. Bunlar hamısı Cənab Prezidentin iradəsinin və gələcəyimizin təminatçısı olan gənclərə münasibətinin təcəssümüdür. Gənclərlə bağlı dövlətin həyata keçirdiyi növbəti uğurlu addım Cənab Prezident tərəfindən 2020-ci ilin “Könüllülər İli” elan olunması oldu. Əslində, dünyanın bəlkə çox az xalqının dilində könüllü sözü könül, ürək, qəlb sözü ilə bir bu qədər assosiasiya təşkil edir. Xalqımız müdrik və humanist xalqdır. Hər zaman təmannasız əldən tutmuş, yardım etmiş və ümid yeri olmuşdur. Lakin bu prossesi ümumxalq birliyinə, çağırışına çevirən Cənab Prezident, xüsusilə gənclərin könüllülüyə dəstək verməsini və faydalanmağını bir vəzifə kimi qarşımızda qoymuş oldu. Biz gənclər də, bu fürsətdən maksimum faydalanaraq, həm özümüzə, həm də cəmiyyətə faydalı ola bilərik”.

Bir gənc olaraq, ona göstərilən etimadı da dilə gətirib: “Mən düz 13 il əvvəl ilk gənclik illərimdə Yeni Azərbaycan Partiyasına qoşularaq, bütün zamanlarda gənclər üçün ən böyük məktəbə, ocağa öz könlümü, könüllü olaraq, vermişəm. Bütün şəxsi inkişafım doğma partiyamın adı ilə bağlıdır. Daha sonra bir gənc kimi etimad göstərilib, doğma evim hesab etdiyim YAP Suraxanı rayon təşkilatında məsləhətçi vəzifəsinə təyin olunmuşam. Partiya rəhbərliyi tərəfindən Suraxanı rayonu Yeni Suraxanı Qəsəbə Bələdiyyəsinə namizədliyim irəli sürülüb və sakinlərin etimadı ilə bələdiyyə üzvü seçilmişəm. Bu, elə mənim simamda bir gəncin könüllülükdən karyeraya addımladığı yolu, qısa da olsa, təsvir etmiş olur. Dünyanın çox az ölkəsində qeyd edilən və Ulu Öndərin saysız- hesabsız töhfələrindən olan “Milli Gənclər Günü” münasibəti ilə hər bir Azərbaycan gəncini və özünü gənc hiss edən Azərbaycan vətəndaşlarını təbrik edirəm. Bu gün bu gözəl və Azərbaycan gəncliyinə məxsus bayram ərəfəsində, mən arzu edərdim ki, Azərbaycan gəncliyinin səsi təhsil ocaqlarından, elm-irfan ocaqlarından gəlsin. Azərbaycan gəncliyi xalqını ən yüksək zirvələrdə təmsil etmək qabiliyyətində olan bir gənclikdir. Arzu edirəm ki, gənclərimiz Ulu Öndərin arzularını gerçəkləşdirsinlər və dövlət başçımızın etimadını doğrultsunlar”.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Sosial şəbəkələrdə qanunu pozan insanlarla bağlı məlumatlar ciddi şəkildə araşdırılacaq



“Heç kim ətrafına insanları toplayaraq, hay-küy yaratmaqla bizi nəyəsə məcbur edəcəyini düşünməsin”. SİA-nın məlumatına görə, bunu dünən Mərkəzi Seçki Komissiyasının iclasında MSK sədri Məzahir Pənahov deyib. MSK sədri bildirib ki, bütün xoşagəlməz hallar qanunun tələblərinə uyğun şəkildə aradan qaldırılacaq: “Doğrudur, MSK sosial şəbəkələrdə yayılan videomateriallara diqqət yetirir. Ancaq müəyyən qrup insanlar var ki, reallığa uyğun olmayan sensasiya xarakterli məlumatları sosial şəbəkələrdə yaymağa çalışır. Bu kimi hallar qəbuledilməzdir. Amma sosial şəbəkələrdə həqiqətən qanunu pozan insanlarla bağlı məlumatlar ciddi şəkildə araşdırılacaq”

# “PAST”: Ermənistan hakimiyyəti hakimlər üçün “kastinqləri” keçirir?

“Ermənistanda dərc edilən “Past” qəzetinin yazdığına görə, Konstitusiya məhkəməsi ətrafında baş verən proseslər demək olar ki, hər gün yeni “çalarlar” sərgiləyir. SİA xəbər verir ki, adıçəkilən nəşrin yazdığına görə, hakimiyyət Konstitusiya məhkəməsinin sədri Hrayr Tomsyanı uzaqlaşdırmaqdan ötrü hər şeyə getməyə hazır olduqlarını gizlətmir. O cümlədən, Konstitusiya məhkəməsinin digər hakimlərinin də uzaqlaşdırılması üçün işlər aparılır.




“Bu günlərdə Nikol Paşinyan bəyan edib ki, Konstitusiya məhkəməsi ətrafında yaranan böhran tez bir zamanda həll olunacaq”, yazan “Past” onu da qeyd edir ki, hakimiyyət hətta daxili qanunları hesabına işlərindən uzaqlaşdırılacaq yeddi hakimin yerinə “kastinq” də keçirib. “Baxmayaraq ki, Konstitusiya məhkəməsinin hakimləri total təzyiqlərə rəğmən, vaxtından əvvəl təqaüdə çıxmaları barədə düşünmədiklərini, təslim olmayacaqlarını bəyan ediblər, hakimiyyət kuluarlarında yeni namizədlərin adları ətrafında fikirlər səslənməyə başlayıb”, erməni nəşri yazır.

# Elşad Hacıyev: Vətəndaş məmnunluğunun təmin olunması üçün polis tərəfindən hər cür imkan yaradılıb



Bakı Şəhər Baş Polis İdarəsi vətəndaş məmnunluğunun ən yüksək səviyyədə təmin olunması üçün bütün zəruri tədbirləri həyata keçirir. Baş İdarənin fəaliyyət sahəsinə daxil olan, ictimai münasibətləri təhdid edən sosial neqativ hallarla bağlı daxil olan bütün müraciətlər, istisnasız olaraq araşdırılır. Heç bir müraciətə etinasızlıq göstərilmir.

Baş İdarənin mətbuat xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev AZƏRTAC-a bildirib ki, vətəndaşların müraciət etməsi üçün 102 - Zəng Mərkəzi Xidməti daxil olmaqla internet-informasiya resurslarından, eləcə də sosial şəbəkələrdən geniş imkanlar yaradılıb. Məzmunundan asılı olmayaraq, hər bir müraciət diqqətlə öyrənilir. Vətəndaşları narahat edən hallar, xüsusilə cinayətə meyilli şəxslərin qeyri-aşkar şəraitdə törətdikləri əməllərlə bağlı məlumatlar məxfilik təmin olunmaqla nəzarətə götürülür, ən müasir metodlarla yoxlanılır. Vətəndaş heç bir ərazi polis orqanına dəvət olunmadan, sorğu-suala çəkilmədən təxirəsalınmaz qaydada müvafiq tədbirlər həyata keçirilir. Hər bir vətəndaş əmin olsun ki, onu narahat edən hallara qarşı polis barışmaz mövqe nümayiş etdirir, cəmiyyəti təhdid edən istənilən hala qarşı mübarizədə onun yanındadır, maraq və mənafelərinin mühafizəçisidir. Polis haqqında ictimai fikrə yönələn böhtan və yalanlar polisin fəaliyyətinə kölgə sala bilməz. Nəzərə alınmalıdır ki, istisnalar ümumi mənzərəni dəyişə bilməz. Polis Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biri olmaqla, fəaliyyətini gündən-günə təkmilləşdirir. Dövrün çağırış və təhdidlərinə laqeyd yanaşmayan Azərbaycan polisi fasiləsiz olaraq vətəndaşların maraqlarının keşiyindədir.

“Qanunla hər bir şəxsin hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələri var. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir”, - deyə E.Hacıyev bildirib.

# “UNESKO-nun mədəni irsinin yaşadılması missiyasına verdiyi töhfəyə görə Azərbaycan dövlətinə təşəkkür edirik”



İncəsənət hər zaman bir ismarıcdır. Bu sərgidə Şəki xalçaçılıq məktəbinin nümunələrini görürük. “Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi” UNESKO-nun Ümumdünya İrs Siyahısına, Azərbaycan xalça sənəti isə UNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilibdir. Bu gün Şəki xalçalarının qurumun baş qərargahında nümayiş olunmasından çox razıyıq. Bu sərgi bütün daimi nümayəndəliklərin üzvlərinə Azərbaycan toxuculuq sənəti ilə tanış olmağa imkan yaradır.

Bu sözləri Heydər Əliyev Fondu tərəfindən UNESKO-nun baş qərargahında təşkil edilmiş “Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər” adlı sərginin açılışında iştirak etmiş UNESKO Baş direktorunun mədəniyyət məsələləri üzrə müavini Erneste Ottone Ramirez AZƏRTAC-a müsahibəsində deyib. Bildirib ki, xalça toxuculuğu Azərbaycanın kimliyini əks etdirir. Toxuculuq ailə çərçivəsində yaşadılan ənənədir: “Bu sənətdən danışanda söhbət mədəniyyət, sənətlə xalq arasında əlaqələrin nə qədər sıx olduğunu görürük. UNESKO-nun mədəniyyət irsinin qorunub saxlanması və yaşadılması kimi vacib missiyasına verdiyi töhfəyə görə Azərbaycan dövlətinə təşəkkür edirik”.

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

## Seçicilərin Siyavuş Novruzova etimadları tükənməzdir

*YAP-ın namizədi: "Yüksək infrastruktur təminatının yaradılması insanların layiqli həyat şəraitinin təmin olunmasını mümkün edib"*

***5** saylı Şahbuz-Babək Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Siyavuş Novruzov seçicilərlə keçirdiyi silsilə görüşlərini davam etdirir. Növbəti görüş Babək rayonunun Vayxır, Xal-Xal və Nəcəfalıdizə kəndlərində keçirilib.***







Görüşlərdə Yeni Azərbaycan Partiyasının Babək rayon təşkilatının sədri İsa Məmmədov Siyavuş Novruzovun, ötən müddət ərzində, seçicilərini parlamentdə layiqincə təmsil etdiyini, ona göstərilən etimadı doğrultduğunu deyib. İ.Məmmədov Azərbaycanın, o cümlədən, Naxçıvan Muxtar Respublikasının dinamik inkişafından, həyata keçirilən sosial layihələrin uğurlu nəticələrindən, vətəndaşların dövlətin hərtərəfli qayğısı ilə əhatə olunmalarından və digər məsələlərdən bəhs edərək, seçiciləri fevralın 9-da keçiriləcək parlament seçkilərində aktiv iştirak etməyə və YAP-ın namizədinə səs verməyə çağırıb.

Deputatlığa namizəd Siyavuş Novruzov xalqımızın Ümummilli Lideri Heydər Əliyevin qurucusu olduğu, Prezident İlham Əliyevin rəhbərliyi ilə zəngin və şərəfli inkişaf yolu keçmiş Yeni Azərbaycan Partiyasının bütün seçkilərin aşkar favoriti olduğunu deyib. O, seçicilərin keçirilən görüşlərə böyük ruh yüksəkliyi ilə qatılmalarının təsadüfi olmadığını deyib.

"Bu, vətəndaşların Yeni Azərbaycan Partiyasına olan böyük inam və etimadının bariz nümunəsidir. İnsanlar Prezident İlham Əliyevin muxtar respublikaya daim böyük diqqət göstərməsini olduqca yüksək qiymətləndirirlər" deyə bildirən Siyavuş Novruzov, eyni zamanda, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Vasif Talıbovun rəhbərliyi ilə görülmüş işlərin əhalinin rifah halının daha da yaxşılaşmasını, sosial-müdafiə və təminat sisteminin güclənməsini, sosialyönümlü iqtisadiyyatın inkişafını təmin etdiyini vurğulayıb: "Digər tərəfdən, qarşıda duran bütün sosial proqramların və infrastruktur layihələrinin uğurla icra edilməsi, məşğulluq səviyyəsinin, ardıcıl olaraq yüksəldilməsi, bir çox sahələrdə davamlı inkişaf göstəricilərinin qeydə alınması Naxçıvan Muxtar Respublikasının tərəqqi yolunda olduğunu göstərir. Babək rayonu və onun bütün kəndlərində də həyata keçirilən abadlıq-quruculuq işləri, yüksək infrastruktur təminatının yaradılması insanların layiqli həyat şəraitinin təmin olunmasını mümkün edib".

Yeni Azərbaycan Partiyasının Seçki Proqramından bəhs edən Siyavuş Novruzov ötən 5 ildə görülmüş işlərin ölkəmizin qüdrətinin artmasını təmin etdiyini deyib. O, daha güclü Azərbaycan naminə YAP-ın 10 addım paketi haqqında məlumat verərək, qarşıdakı dövrdə dayanıqlı iqtisadi inkişafın davam etdirilməsinin, sahibkarlığın gücləndirilməsinin, təhsilin səviyyəsinin artırılmasının, əhalinin rifahının daha da yaxşılaşdırılmasının, ölkəmizin beynəlxalq mövqeyinin möhkəmləndirilməsinin, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasının, ərazi bütövlüyümüzün bərpa olunması yönündə fəaliyyətin davam etdirilməsinin və digər istiqamətlərin başlıca vəzifələr kimi müəyyən edildiyini diqqətə çatdırıb.

Siyavuş Novruzov seçiciləri fevralın 9-da parlament seçkilərində fəal iştirak etməyə və Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıb.

Görüşlər zamanı seçicilərin təklifləri dinlənib, onları maraqlandıran suallar cavablandırılıb. Seçicilər xalqın etimadını doğrultmuş YAP-ın namizədinə səs verəcəklərini qətiyyətlə ifadə ediblər.

**Rövşən RƏSULOV**

## Seçicilər YAP-ın namizədi Oqtay Əsədovu dəstəkləyirlər



***45** saylı Abşeron Seçki Dairəsindən deputatlığa namizəd Oqtay Əsədovun seçiciləri ilə görüşləri keçirilib. 9 fevral 2020-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək parlament seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən 45 saylı Abşeron Seçki Dairəsindən deputatlığa namizəd Oqtay Sabir oğlu Əsədovun vəkilləri - AMEA-nın həqiqi üzvü, akademik Vaqif Abbasov, Abşeron rayon Ağsaqqallar Şurasının sədri Nadir Ağayev, YAP Abşeron rayon təşkilatının sədri, iqtisad elmləri üzrə fəlsəfə doktoru Bilman Vəliyev, kimya üzrə fəlsəfə doktoru Hüsü İbrahimov seçicilərlə növbəti görüşlər keçirib.***

Deputatlığa namizədin vəkilləri Oqtay Əsədovun fəaliyyətindən danışıb, onların problemləri ilə maraqlanıb, seçiciləri 9 fevralda fəal olmağa və Yeni Azərbaycan Partiyasının namizədi Oqtay Əsədova səs verməyə çağırıblar. Görüşdə çıxış edən seçicilər rayona olan qayğıdan, o cümlədən, problemlərindən danışıblar və ölkə Prezidenti İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının namizədi olan Oqtay Əsədova səs verəcəklərini bildiriblər.



**Rövşən RƏSULOV**

## Deputatlığa namizəd Nizami Cəfərovun seçicilərlə görüşləri davam edir

***P**arlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 108 saylı Ağstafa Seçki Dairəsindən Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Nizami Cəfərov Ağstafa rayonu Sadıqlı, Muğanlı və Böyük Kəsik kəndlərinin seçicilərilə görüş keçirib.***



Görüşlərdə çıxış edən deputatlığa namizəd Nizami Cəfərov ölkəmizin ictimai-siyasi həyatında gedən proseslər haqqında danışıb, əhalinin rifah halı, sakinləri narahat edən məişət problemləri ilə maraqlanıb.



Yenidən millət vəkili seçiləcəyi təqdirdə, rayon ərazisində görüləcək işlər haqqında məlumat verən deputatlığa namizəd daha güclü Azərbaycan naminə hər kəsi ölkə başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin siyasətinin ətrafında daha sıx birləşməyə və 9 fevral - seçki günü fəal olmağa dəvət edib.



Öz növbəsində, seçicilər qarşıdan gələn parlament seçkilərində Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklərini qeyd ediblər.

**RƏFİQƏ HÜSEYNOVA**

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*




## Cəlilabadlıların seçimi Malik Həsənovdur



***Dünən Yeni Azərbaycan Partiyası tərəfindən 67 saylı Cəlilabad şəhər Seçki Dairəsindən deputatlığa namizəd Malik Həsənovun təbliğat kampaniyası çərçivəsində rayonun seçiciləri ilə görüşlər keçirib.***

Keçirilən görüşdə YAP Cəlilabad rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı çıxış edərək bildirib ki, YAP seçkilərə “Daha güclü Azərbaycan namine!” şüarı ilə gedir: “Hər dəfə keçirilən seçkilərə yeni texnologiya ilə, layiqli namizədlərlə, ən başlıcası isə, Ümummilli Lider Heydər Əliyev ideyaları ilə gedirik”.



M.Mirxaslı, həmçinin, son illər həyata keçirilən iqtisadi inqilabi islahatlardan danışaraq, Azərbaycanın uğurlu və inkişaf etmiş dövlətlər sırasında olmasının fərəh doğuran nailiyyətlər olduğunu bildirib və cəlilabadlıları, birmənalı olaraq, Yeni Azərbaycan Partiyasının irəli sürdüyü namizədə dəstək olacağını əminliklə söyləyib.

Namizədin vəkili Cahangir Muradov Malik Əvəz oğlu Həsənovun həyat və fəaliyyəti haqqında seçicilərə məlumat verərək, namizədin seçki platformasını təfərrüatı ilə şərh edərək, seçiciləri YAP-ın irəli sürdüyü namizədə səs verməyə çağırıb.

Görüşdə çıxış edən seçicilər də Yeni Azərbaycan Partiyası tərəfindən Milli Məclisə namizədliyi irəli sürülmüş Malik Əvəz oğlu Həsənova böyük ümid bəslədiklərini, 9 fevral 2020-ci il tarixində keçiriləcək parlament seçkilərində onu dəstəkləyəcəklərini bildiriblər. Görüşdə deputatlığa namizəd Malik Həsənov çıxış edən rayonun seçiciləri ilə görüşlərdən məmnun olduğunu bildirib. Qeyd edib ki, ölkənin hər bir sahəsində baş verən uğurlar Cəlilabadda da öz təzahürlərini tapır. Namizəd, onu da vurğulayıb ki, bütün seçkilərdə Cəlilabad ictimaiyyəti ölkədə həyata keçirilən mütərəqqi ideyalara hər zaman dəstək verib və bu seçkidə də bu fəallığı nümayiş etdirəcəklərinə əmin olduğunu söyləyib.

Malik Həsənov YAP-ın bu seçkilərə hansı iqtisadi-siyasi platforma ilə getdiyindən də ətraflı danışaraq, bildirib ki, Yeni Azərbaycan Partiyası vəd vermir, real iş görür: “Bunu yüksək qiymətləndirən xalq həmişə YAP-a dəstək olub. Bu baxımdan da, əgər millət vəkili seçilərəmsə, öz səlahiyyətim çərçivəsində qarşıya çıxan problemlərin həll olunmasına çalışacağam”.

Sonda Malik Həsənov cəlilabadlıları fevralın 9-da keçiriləcək seçkilərdə daha aktiv olmağa və ona səs verməyə çağırıb.

***RƏFİQƏ KAMALQIZI***

## Mahir Abbaszadə bölgələrdə görüşlərə Şəkidən başladı

***Yeni Azərbaycan Partiyası tərəfindən 121 saylı Laçın Seçki Dairəsindən namizədliyi irəli sürülmüş Mahir Abbaszadə təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüşünü Şəkidə keçirib. Şəkidə məcburi köçkünlər üçün salınmış Çələbi xan qəsəbəsində yerləşən klub icma mərkəzində keçirilən görüşdə Laçın rayonundan olan məcburi köçkünlər iştirak edib.***




Görüşdə çıxış edən Mahir Abbaszadə YAP Sədri, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə sosial-iqtisadi sahədə həyata keçirilən islahatlardan danışıb: “Dövlət tərəfindən aparılan siyasət xalqın maddi rifah halının yüksəlməsinə, onların layiqli həyat səviyyəsinin təmin olunmasına hesablanıb.” Azərbaycanda güclü xalq-iqtidar birliyinin olduğuna diqqət çəkən Mahir Abbaszadə bunun sabitliyin təməlini təşkil etdiyini vurğulayıb.



Məcburi köçkünlərlə bağlı həyata keçirilən dövlət siyasətinə diqqət çəkən Mahir Abbaszadə onu da bildirib ki, bu kateqoriyadan olan soydaşlarımızın sosial problemlərinin həlli daim dövlətin diqqət mərkəzindədir. Bu problemlərin aradan qaldırılması ilə bağlı dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın verdiyi tapşırıqlar ardıcıllıqla icra olunur.



Görüşdə çıxış edən təbliğat-təşviqat kampaniyasının iştirakçıları Mahir Abbaszadənin, ötən illər ərzində, olan deputatlıq fəaliyyəti haqqında ətraflı məlumat verib. Bildirilib ki, deputat hər zaman seçicisinin yanında olub və onları parlamentdə layiqincə təmsil edib.

Daha sonra görüş iştirakçılarına deputatın seçki platforması haqqında məlumat verilib. Seçicilərinin müraciətlərinin müsbət həlli üçün çalışdığını deyən M.Abbaszadə, növbəti dəfə də qalib gələrsə, onların etimadını doğruldacağını bildirib.

Laçın rayonundan olan məcburi köçkünlər çıxışlarında Mahir Abbaszadənin beşinci çağırış Milli Məclisdəki fəaliyyətini yüksək qiymətləndirib və fevralın 9-da keçiriləcək seçkilərdə də, ona səs verəcəklərini bildiriblər.

***RƏFİQƏ HÜSEYNOVA***

## Parlament seçkilərini izləmək üçün 694 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib

Azərbaycanda fevralın 9-na təyin edilmiş parlament seçkilərini izləmək üçün qeydiyyatdan keçən müşahidəçilərin sayı açıqlanıb. Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MSK-nın yanvarın 30-da keçirilən iclasında ümumilikdə 61 min 813 yerli müşahidəçinin qeydiyyatdan keçdiyini bildirib. O, həmçinin məlumat verib ki, seçkiləri izləmək üçün 694 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib.



# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

## Deputatlığa namizəd Məşhur Məmmədovun seçicilərlə növbəti görüşü keçirilib







***Yeni Azərbaycan Partiyasının 70 saylı Masallı şəhər Seçki Dairəsindən deputatlığa namizədi Məşhur Məmmədovun rayon seçiciləri ilə növbəti görüşü keçirilib.***

Görüşü açan YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev bildirib ki, YAP seçkilərə “Daha güclü Azərbaycan naminə!” şüarı ilə gedir. Azərbaycanda növbəti parlament seçkilərinin şəffaf və demokratik keçiriləcəyini vurğulayan S.Əliyev bildirib ki, YAP hər zaman xalqa xidmət prinsipini prioritet kimi seçki proqramlarında əsas götürüb.

Görüşdə çıxış edən deputatlığa namizəd Məşhur Məmmədov partiyanın seçki proqramı haqqında ətraflı məlumat verib. Namizəd, xüsusi olaraq, vurğulayıb ki, ölkəmizin belə yüksək inkişaf tempi ilə irəliləməsində hakim Yeni Azərbaycan Partiyasının rolu danılmazdır: “Ona görə də, bu gün YAP Azərbaycanın hər yerində sevilən və dəstəklənən bir siyasi təşkilatdır. Xalqımız YAP-ın bütün qərar və addımlarını öz iradəsi ilə dəstəkləyir və onların həyata keçirilməsində fəal rol oynayır. Beləliklə də, xalqımızın ölkə Prezidentinə olan inamı və rəğbəti, onu deməyə əsas verir ki, bu seçkilərdə də YAP namizədlərinin qalib gələcəyi şübhəsizdir”.

Görüşdə çıxış edən seçicilərdən Əyyub Mehdiyev, Rəhimə Şahmirzəyeva, Mehdi Orucov, Şahüseyn Hüseynov, Ələkbər Dadaşov və başqaları fevralın 9-da keçiriləcək seçkilərdə Yeni Azərbaycan Partiyasının 70 saylı Masallı şəhər Seçki Dairəsindən deputatlığa namizədi Məşhur Məmmədova dəstək olacaqlarını bildiriblər.

***R.HÜSEYNOVA***

## Kamaləddin Qafarovun səhiyyə işçiləri ilə görüşü keçirilib

***9 fevral tarixində ölkəmizdə keçiriləcək Milli Məclisə seçkilərdə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi 9 saylı Binəqədi ikinci Seçki Dairəsi üzrə irəli sürülmüş Kamaləddin Qafarovun səhiyyə işçiləri ilə görüşü keçirilib.***



Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri Ramiz Göyüşov Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlara, qloballaşan dünyanın tələblərinə uyğun uğurla davam etdirilən sosial-iqtisadi inkişaf strategiyasına nəzər saldı. Qeyd etdi ki, son 16 ildə ölkəmizdə bütün dünya miqyasında nümunəvi sayılan və mütərəqqi cəhətləri ilə fərqlənən yeni keyfiyyətli inkişaf modeli formalaşıb. R.Göyüşov seçkilər demokratiyanın atributlarından biri olduğunu bildirərək, hər bir vətəndaşın seçki hüququndan istifadə etməli olduğunu qeyd etdi. Daha sonra R.Göyüşov deputatlığa namizəd Kamaləddin Qafarovun Milli Məclisdəki fəaliyyətinə nəzər saldı. Onun gördüyü işlərdən və fəaliyyətindən bəhs edərək, seçiciləri fəal iştirak etməyə və layiqli namizədə səs verməyə səslədi.





Görüşdə çıxış edən deputatlığa namizəd Kamaləddin Qafarov Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü, prinsipial, milli maraqlara əsaslanan siyasəti nəticəsində ölkəmizin dinamik inkişaf yolunda inamla irəlilədiyini bildirərək, Azərbaycanın güclü və yüksək beynəlxalq nüfuza malik dövlətə çevrildiyini diqqətə çatdırdı: “Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən müasir dövrün tələbinə uyğun siyasi islahatlar, icra edilən iqtisadi proqram və sərəncamlar ölkəmizin nüfuzunun sərhədlərini genişləndirməklə bərabər, insan amilinin də inkişafına güclü təkan verib. Azərbaycan öz daxili siyasətində insan amilinə prioritet istiqamət verməklə həm iqtisadi, həm sosial, həm də siyasi proseslərdə önəmli mövqe qazanıb. Ölkə Prezidenti İlham Əliyev dəfələrlə qeyd edib ki, Azərbaycanda dövlət siyasətinin prioritetini insanların yüksək rifah və firavan yaşaması təşkil edir. Ölkə başçısı hər bir addımında, verdiyi bütün qərarlarda, ilk olaraq, məhz insanları düşünür”.

Kamaləddin Qafarov diqqətə çatdırdı ki, insanların səhiyyə xidmətlərindən razılığı ildən-ilə artır: “Azərbaycan dövləti insanların sağlamlığını prioritet məsələ kimi daim diqqət mərkəzində saxladığından, son illərdə ölkə büdcəsindən səhiyyəyə ayrılan xərclər də artıb. Səhiyyə sahəsində aparılan islahatların davamı olaraq, icbari tibbi sığortanın tətbiqi hökumətin səhiyyə sahəsində apardığı islahatların tərkib hissəsidir. İcbari tibbi sığortaya keçid ölkə vətəndaşlarının tibbi xidmətlərə əlçatanlığını artırır. İcbari tibbi sığorta müasir və keyfiyyətli tibbi xidməti təmin edən səhiyyənin maliyyələşdirilməsinin yeni formasıdır. Bu layihənin məqsədi səhiyyənin maliyyələşdirilməsini təkmilləşdirmək, habelə, əhaliyə etibarlı, keyfiyyətli, səmərəli tibbi xidmətlərin göstərilməsinə zəmanət verəcək universal və dayanıqlı tibbi sığortanı təmin etməkdir. Bu, xəstəliklərin erkən mərhələdə aşkar edilməsində, daha ağır mərhələyə keçidinin qarşısının alınmasında, ən ucqar kəndlərdə belə yaşayan əhalinin keyfiyyətli tibbi xidmətlərlə təmin olunmasında əhəmiyyətli rol oynayır”.

O, çıxışının sonuda rayon səhiyyə işçilərini YAP-ın bu seçkilərə “Daha güclü Azərbaycan naminə” şüarı ilə qatıldığını bildirərək, seçicilərin etimadını qazanaraq, millət vəkili seçiləcəyi təqdirdə, onların etimadını doğruldacağını bildirdi.

Görüşdə çıxış edən seçicilərdən Hikmət Butayev, İsa Cahanov, Məlahət İbrahimova və başqaları Azərbaycanı daha da gücləndirmək naminə fevralın 9-da Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının namizədinə - Kamaləddin Qafarova səs verəcəklərini və bütün səhiyyə işçilərini YAP-ın layiqli namizədi Kamaləddin Qafarova səs verməyə çağırdılar.

Daha sonra görüş diskussiya şəkilində davam etdiriliğ.

***Zümrüd BAYRAMOVA***

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

## Ağdaşlı seçicilərin seçimi Cavid Osmanovdur

***Fevralın 9-da ölkəmizdə keçiriləcək parlament seçkilərində 90 saylı Ağdaş Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Cavid Osmanovun təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüşü Turyançay qəsəbəsinin sakinləri və su təsərrüfatı işçiləri ilə olub.***





Seçicilər qarşısında çıxış edən Cavid Osmanov parlament seçkiləri və onun keçirilmə zərurəti haqqında ətraflı məlumat verib. O, 4 il ərzində Milli Məclisdəki fəaliyyəti, rayon seçiciləri ilə keçirdiyi görüşlər və gördüyü işlərin qısa hesabatını seçicilərinin diqqətinə çatdırıb. O, bundan sonra da hər zaman ağdaşlıların yanında olacağını və rayonun inkişafı naminə əlindən gələni əsirgəməyəcəyini vurğulayıb. Son illər ərzində, ölkə başçısı İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət, kadr və struktur islahatları haqqında geniş məlumat verən Cavid Osmanov insanların sosial rifah halının gündən-günə yaxşılaşdığını və ölkədə hər bir sahədə davamlı inkişafa nail olunduğunu qeyd edib. Bildirib ki, meliorasiya və su təsərrüfatı sahəsində də böyük işlər görülmüş və bu gün də uğurla davam edir.

Görüşdə geniş və əhatəli çıxış edən Cavid Osmanov, son 16 il ərzində, ölkəmizin keçdiyi uğurlu inkişaf yolundan - həyata keçirilən beynəlxalq əhəmiyyətli və eləcə də respublika miqyaslı layihələrdən də söz açıb. Bütün görülən işlərin ölkə başçısı İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin nəticəsində ərsəyə gəldiyini qeyd edən deputatlığa namizəd ölkəmizdə həyata keçirilmiş islahatlar və xüsusi ilə də, vətəndaşlarımızın sosial təminatının yaxşılaşdırılması sahəsində imzaladığı fərman və sərəncamlar barədə geniş məlumat verib. İnsanların sosial rifahının yüksəldilməsi üçün atılan bu addımların ölkə ictimaiyyəti tərəfindən rəğbətlə qarşılandığını vurğulayan Cavid Osmanov bildirib ki, Prezidentimiz İlham Əliyevin verdiyi qərarlar vətəndaşların maraqlarına xidmət edir.



Deputatlığa namizəd çıxışı zamanı son illərdə Ağdaş rayonunun sürətlə inkişaf etməsinə və bu inkişafın səbəbinin Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin yürütdüyü düşünülmüş siyasətin olduğunu bildirərək, ağdaşlıların da, məhz bunun üçün də Yeni Azərbaycan Partiyasının ətrafında sıx birləşdiyini qeyd edib. Cavid Osmanov vurğulayıb ki, keçirilən bütün görüşlərdə seçicilərin ona yekdilliklə dəstək olmaları da ağdaşlıların dövlətə-dövlətçiliyə, Yeni Azərbaycan Partiyasına olan sədaqətindən irəli gəlir. Çıxışının sonunda Cavid Osmanov göstərdikləri dəstəyə və etimada görə seçicilərinə dərin minnətdarlığını bildirib.

Görüşdə çıxış edən seçicilər bildiriblər ki, onlar bütün seçki kampaniyalarında fəal şəkildə iştirak ediblər. Öz seçimlərini isə Yeni Azərbaycan Partiyası namizədlərini açıqlayan zaman Cavid Osmanovun adının yenidən bu siyahıda görən zaman ediblər. Onlar görülən işlərin, həyata keçirilən uğurlu layihələrin qarşılığı olaraq daha güclü Azərbaycan naminə, məhz Yeni Azərbaycan Partiyasının namizədi Cavid Osmanova səs verəcəklər.

Sonda seçiciləri maraqlandıran suallara cavab verildi və xatirə şəkilləri çəkdirildi.

***Zümrüd BAYRAMOVA***

## YAP-ın namizədi Kamilə Əliyevanın seçicilərlə görüşləri davam edir

***111 saylı Zaqatala-Balakən Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının namizədi Kamilə Əliyevanın təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Deputatlığa namizəd Kamilə Əliyevanın növbəti görüşü Zaqatala şəhərinin ziyalıları ilə keçirilib. Görüşdə çıxış edən YAP Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə cəmiyyət həyatının bütün sahələrində genişmiqyaslı tədbirlər həyata keçirilir və dərin məzmunlu islahatlar reallaşır. Dövlət proqramlarına uyğun olaraq, respublikanın hər yerində olduğu kimi, Zaqatala rayonunda da bir sıra mühüm infrastruktur layihələri həyata keçirilir.***





H.Qurbanov çıxışının sonunda seçiciləri Yeni Azərbaycan Partiyasının namizədi Kamilə Əliyeva səs verməyə çağırıb.

Görüşdə çıxış edən deputatlığa namizəd Kamilə Əliyeva ölkəmizdə dərin və hərtərəfli islahatların həyata keçirildiyini diqqətə çatdıraraq, bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun sosial rifahı, qayğıları və üzləşdiyi problemlərin həlli dayandığını bildirib: “Ölkə Prezidentinin milli maraqlara əsaslanan müstəqil siyasəti sayəsində, Azərbaycan regionda və eləcə də, dünyada sabitlik və təhlükəsizlik adasına çevrilib. Cənab Prezidentin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən hərtərəfli islahatlar kursunun mahiyyəti, onun əsas istiqamətləri və ilkin nəticələri göz önündədir”.

Kamilə Əliyeva çıxışının sonunda YAP-ın bu seçkilərə “Daha güclü Azərbaycan naminə” şüarı ilə qatıldığını bildirərək, seçicilərin etimadını qazanaraq, millət vəkili seçiləcəyi təqdirdə, bu etimadı doğrultmaq üçün çalışacağını vurğuladı və ona göstərilən yüksək etimadı doğruldacağına söz verdi.



Seçicilər ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan genişmiqyaslı islahatların vətəndaş məmnunluğunu artırdığını, əhalinin rifahının daha da yaxşılaşmasına xidmət etdiyini bildiriblər. Seçicilər Kamilə Əliyevanı sona qədər dəstəkləyəcəklərini və partiyanın namizədinə səs verəcəklərini vurğulayıblar.

***Zümrüd BAYRAMOVA***

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

## Hikmət Babaoğlunun seçicilərlə görüşləri davam edir





***Parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyasının 19 saylı Nərimanov birinci Seçki Dairəsindən deputatlığa namizədi Hikmət Babaoğlu Nərimanov rayonu Əliyar Əliyev-11 ünvanında seçicilərlə görüş keçirib.***

Görüşü açan YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev partiyamızın bu seçkilərdə qələbə qazanacağına əmin olduğunu bildirib. T.Tağıyev vurğulayıb ki, partiyamız parlament seçkilərinə böyük inamla gedir. O, 19 saylı Nərimanov birinci Seçki Dairəsindən partiyanın deputatlığa namizədinin növbəti dəfə Hikmət Babaoğlu olduğunu bildirib. O, YAP-ın deputatlığa namizədi Hikmət Babaoğlunun tərcümeyi-halı, əmək və elmi-siyasi fəaliyyəti, eləcə də, ötən 5 ilə yaxın müddətdə millət vəkili kimi gördüyü işlər haqqında geniş məlumat verib.

19 saylı Nərimanov birinci Seçki Dairəsindən YAP tərəfindən namizədliyi irəli sürülmüş Hikmət Babaoğlu seçiciləri salamlayaraq görüşə gəldikləri üçün təşəkkür edib. Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu YAP-ın üzvü olaraq seçkilərdə namizəd kimi iştirak etdiyi üçün fəxr hissi keçirdiyini bildirən Hikmət Babaoğlu deyib ki, partiya yarandığı vaxtdan bu günədək azərbaycançılıq ideologiyası və müstəqillik prinsipi ilə böyük uğurlar əldə edib. Onun sözlərinə görə, bu yol bundan sonra da eyni ideologiya və prinsip əsasında eyni hədəflərə doğru davam edəcək: "Mənim üçün həm şərəf, həm də məsuliyyətdir ki, regionun ən güclü partiyası olan Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyim irəli sürülüb. Mən bu etimadı doğruldacağıma, sizlərin verəcəyiniz səslərə layiq olacağıma söz verirəm və əminəm ki, bundan sonrakı dövrdə də birlikdə böyük nailiyyətlər əldə edəcəyik. Ona görə ki, Yeni Azərbaycan Partiyasının namizədlərinin arxasında nəhəng siyasi güc və 750 minə yaxın insanın siyasi iradəsi dayanıb".

Hikmət Babaoğlu çıxışında Milli Məclisdə fəaliyyəti dövründə Nərimanov rayon seçicilərini layiqincə təmsil etməyə çalışdığını söyləyib. Onun sözlərinə görə, mütəmadi olaraq, seçicilərlə görüşlər keçirilib, onların qaldırdığı məsələlər parlament tribunasından səsləndirilib, eləcə də, həll edilməsi üçün aidiyyəti dövlət qurumlarına ünvanlanıb: "Belə ki, millət vəkili kimi fəaliyyətim ərzində vətəndaşlar tərəfindən ünvanımıza 118 şifahi və 97 yazılı müraciət daxil olub. Qeydə alınan 215 müraciətdən 100 müraciət tam olaraq həllini tapıb, 60 müraciət qismən təmin edilib, 40 müraciət aidiyyəti qurumlara göndərilib və yerdə qalan müraciətlərlə bağlı lazımi izahatlar verilib".

Deputatlığa namizəd onu da qeyd edib ki, bu gün Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük uğurlara imza atır, ölkəmiz hər bir sahə üzrə dinamik inkişaf edir. YAP-ın seçkilərə "Daha güclü Azərbaycan naminə!" şüarı ilə getdiyini deyən deputatlığa namizəd partiyamızın və dövlətimizin bu hədəfə nail olacağına əminliyini ifadə edib.

Görüşdə çıxış edən seçicilər qarşıdan gələn parlament seçkilərində YAP-ın namizədi Hikmət Babaoğluna səs verəcəklərini bəyan ediblər.

Görüşdə, həmçinin, seçiciləri maraqlandıran suallar cavablandırılıb.

***RƏFİQƏ KAMALQIZI***

## Nəsimi seçiciləri "Daha güclü Azərbaycan naminə" Məlahət İbrahimqızına səs verəcəklər

***Nəsimi rayonu, 4-cü mikrorayon, 20 Yanvar - 23b ünvanında və rayonun 2-ci mikrorayon, H.Seyidzadə - 27 ünvanında Yeni Azərbaycan Partiyasının 21 saylı Nəsimi Birinci Seçki Dairəsi üzrə namizədi Məlahət İbrahimqızının seçicilərlə növbəti görüşləri keçirilib.***





Görüşlərdə YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin apardığı böyük islahatlardan danışıb. Görüş zamanı sakinlər ölkədə gedən islahatları yüksək qiymətləndirdiklərini bildiriblər. Eyni zamanda, onların problemləri, şikayət və təklifləri dinlənilib və həlli istiqamətində yerindəcə addımlar atılıb.

Deputatlığa namizəd Məlahət İbrahimqızı bildirib ki, bugünədək görüşlərdə qaldırılan problemləri təhlil edir, həlli mümkün olan problemləri operativ qaydada həll etməyə çalışır.

Görüşün yekununda Məlahət İbrahimqızı seçiciləri "Daha güclü Azərbaycan naminə" Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstək olmağa çağırıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Qaradağ rayonunda seçki qərargahı uğurlu fəaliyyət göstərir



Milli Məclisə seçkilərlə əlaqədar Yeni Azərbaycan Partiyasının Mərkəzi SeçkiQərargahının Qaradağ rayon şöbəsinin növbəti iclası keçirilib. Partiyanın rayon təşkilatının sədri Aydın Hüseynov çıxış edərək, qərargahın fəaliyyəti barədə ətraflı hesabat verib. Qeyd edib ki, qərargah 2 dairə üzrə - 11 saylı Qaradağ və 12 saylı Qaradağ - Binədəqi-Yasamal Seçki Dairələri üzrə fəaliyyət göstərir. YAP tərəfindən hər iki dairə üzrə namizədlikləri irəli sürülmüş nümayəndələrin təbliğat-təşviqat kampaniyası çərçivəsində bütün qəsəbələrdə, məhəllə və evlərdə seçicilərlə görüşlər keçirilib və proses davam edir: "Partiyanın Seçki Platforması ilə bağlı hazırlanan bülletenlər seçicilərə çatdırılır. Qərargahda gənclərdən ibarət formalaşan könüllü dəstələr seçicilərlə telefon əlaqəsi yaradaraq, seçkilərin yekdil formada keçirilməsinə çalışırlar. Nəzarətçilər və müşahidəçilərlə bağlı mütəmadi görüşlər keçirilir və seçki proseduru haqda onlara məlumatlar verilir".



YAP tərəfindən namizədliyi irəli sürülmüş nümayəndələrin seçicilərlə görüşünə toxunan təşkilatın sədri Aydın Hüseynov qeyd edib ki, təbliğat-təşviqat kampaniyasına, qanunvericiliyə uyğun olaraq, yanvarın 17-dən başlanılıb: "Seçicilərlə qəsəbələrdə, məhəllə və evlərdə keçiriləcək görüşlərin vaxtı və yeri barədə əvvəlcədən məlumat hazırlanıb və buna layiqincə əməl olunur. Bu səbəbdən də, partiyanın 2 dairə üçün irəli sürdüyü namizədlərin seçicilərlə görüşləri müntəzəm keçirilir".

Qərargahın fəaliyyəti videoçarx vasitəsilə tədbir iştirakçılarının diqqətinə çatdırılıb və növbəti mərhələ üçün nəzərdə tutulan bütün məsələlərə aydınlıq gətirilib.

***R.HÜSEYNOVA***

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

## SƏBAİL

Dünən Yeni Azərbaycan Partiyasının 29 saylı Səbail Seçki Dairəsi üzrə namizədi Aytən Hüseynova təbliğat-təşviqat kampaniyası çərçivəsində Badamdar qəsəbəsi sakinləri ilə görüşüb. Seçicilərə seçki platforması və seçiləcəyi təqdirdə, deputat kimi qarşıya qoyduğu hədəflər haqqında ətraflı məlumat verən YAP namizədi Aytən Hüseynova sakinlərlə onları maraqlandıran məsələlər ətrafında müzakirələr aparıb. O seçiciləri 9 fevralda keçiriləcək parlament seçkilərində fəal iştirak eiməyə və YAP-ın namizədlərinə səs verməyə çağırıb.





Görüşdə çıxış edən Badamdar qəsəbəsi sakinləri də seçki günü məntəqələrə gələrək, siyasi mövqelərini nümayiş etdirəcəklərini bildiriblər.

## XAÇMAZ

YAP Xaçmaz rayon təşkilatı parlament seçkilərinə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülən Eldəniz Səlimovun Qarabağ əlilləri, veteranları və şəhid ailələri birliyinin rayon şöbəsi üzvləri ilə görüşü keçirilib. Görüşlərdə çıxış edən YAP Xaçmaz rayon təşkilatının sədri Şəmsəddin Xanbabayev ölkə Prezidenti İlham Əliyevin apardığı uğurlu islahatlardan danışaraq bildirib ki, məhz bunun nəticəsidir ki, ölkəmiz günü-gündən inkişaf edir, iqtisadiyyatımız güclənir, insanların rifah halı yaxşılaşır.



Parlament seçkilərinə namizəd Eldəniz Səlimovun ötən çağırışda fəaliyyəti haqqında tədbir iştirakçılarına geniş məlumat verilib.

Görüşdə çıxış edən YAP tərəfindən parlament seçkilərinə namizədliyi irəli sürülən Eldəniz Səlimov ötən çağırışda fəaliyyəti haqqında tədbir iştirakçılarına geniş məlumat verib. YAP-ın namizədi ölkə rəhbərinin həyata keçirdiyi ardı-



cıl uğurlu siyasətdən, torpaqlarımızın sülh yolu ilə alınması üçün həyata keçirdiyi xarici siyasətdən və veteran, şəhid və əlil ailələrə diqqət və qayğısından danışıb.

Görüşdə Eldəniz Səlimovu müharibə veteranları ilə sıx əməkdaşlığına və xaricdə ölkəmizi yüksək səviyyədə təmsil etdiyinə görə, Xaçmaz rayon Qarabağ əlilləri, veteranları və şəhid ailələri birliyinin sədri Şölət Dadaşzadə “Vətən Naminə” medalını namizədə təqdim edib.

Görüşdə Azad Şeydayev, Sabir Məmmədov, Zəbi Mustafayev və başqaları çıxış edərək, bildiriblər ki, 9 fevral 2020-ci ildə keçiriləcək parlament seçkilərində YAP-ın namizədinə səs verməklə partiyamıza, dövlətimizə, dövlətimizin uğurlu siyasətinə və nəhayət, Ulu Öndər Heydər Əliyev ideyalarına səs vermiş olacağıq.

## QUSAR

51 saylı Qusar Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyasının namizədi Azər Badamovun təbliğat-təşviqat kampaniyası çərçivəsində Qusar rayonunun Həzrə, Kirig, Ləcət və Yuxarı Zeyxur kəndlərində seçicilərlə görüşü keçirilib.





Görüşləri YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov açaraq seçicilərə Yeni Azərbaycan Partiyasının Azərbaycan Respublikasının ictimai-siyasi həyatındakı uğurları barədə məlumat verib. O, həmçinin, Yeni Azərbaycan Partiyasının 51 saylı Qusar Seçki Dairəsindən deputatlığa namizədi Azər Badamovun fəaliyyəti barədə danışaraq seçiciləri partiyanın namizədi Azər Badamova səs verməyə çağırıb.

Görüşdə deputatlığa namizəd Azər Badamov geniş çıxış edərək, Milli Məclisin deputatı olduğu dövrdə özünün fəaliyyəti barədə seçicilərə ətraflı məlumat verib.

Görüşlərdə çıxış edən kənd sakinləri İncixanım Məmmədxanova, Natiq Novruzov, Nofel Qədimov, Suliddin Əlimuradov, Salman Qayibov, Saleh Bağışov, Mahmud Ağacanov və Dostəli Ələskərov Yeni Azərbaycan Partiyasının siyasi xəttini dəstəkləyərək, 9 fevral parlament seçkilərində deputatlığa namizəd Azər Badamova yekdilliklə səs verəcəklərini bildiriblər.

## OĞUZ

Yanvarın 30-da 117 saylı Oğuz-Qəbələ Seçki Dairəsindən deputatlığa namizəd Aqiyə Naxçıvanlı rayonun ucqar kəndlərindən olan Baş Daşağılda, Muxas kəndində və Malıx yaşayış məntəqəsində təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüşünü keçirib. O, kənd sakinləri ilə görüşdə onların problemləri ilə maraqlanıb, əvvəlki illərdə görülən işlər barədə söhbətlər aparılıb. Seçicilərdən çıxış edənlər - Nadiyət Dadyeva, Pünhan Səmədova, Nəsib Nəsibov, Ramiz Məmmədov və başqaları ölkədə gedən inkişafdan, abadlıq işlərindən məmnunluq ifadə ediblər və bütün bu işləri həyata keçirən ölkə başçısı İlham Əliyevə çətin və şərəfli işində uğurlar arzulayıblar. Onlar Aqiyə Naxçıvanlının Milli Məclisin əvvəlki çağırışlarındakı deputatlığı dövründə seçicilərin müraciətlərinə laqeyd qalmadığından və daim onların yanında olduğundan razılıqlarını bildirərək, mövcud olan bəzi problemlərlə də bağlı aidiyyəti qurumlar





qarşısında məsələ qaldırmasını xahiş ediblər.

Görüşün sonunda hər üç kəndin seçiciləri Yeni Azərbaycan Partiyasının Seçki Platformasını bəyəndiklərini və onun namizədini dəstəklədiklərini, fevralın 9-da keçiriləcək seçkilərdə fəal olacaqlarını bildiriblər.

Yanvarın 30-da, günün ikinci yarısında, YAP-ın deputatlığa namizədi Aqiyə Naxçıvanlı rayonun Udin İcmasının nümayəndələri ilə də görüş keçirib. Görüşdə Aqiyə Naxçıvanlı icma üzvlərini salamlayaraq, onlarla keçirdiyi görüşdən məmnunluğunu bildirib və qeyd edib ki, bu gün Azərbaycan bütün dünyada multikultural, tolerant ölkə kimi tanınmaqla yanaşı, təkcə mədəniyyətlərarası deyil, həm də dinlərarası dialoqun mərkəzinə çevrilib.

“Udinlər, bu illər ərzində, Azərbaycan ərazisindəki türkdilli qəbilələrlə qaynayıb-qarışaraq, əsrlər boyu dinc şəraitdə yaşamaqla bərabər, özlərinin mədəniyyətini, adət-ənənələrini, dini inanclarını, ən əsası isə, dillərini qoruyub-saxlayıblar. Bu gün də dövlətimiz Azərbaycanda yaşayan bütün azsaylı xalqlar üçün zəruri şərait yaradır” deyə deputatlığa namizəd xatırladıb.

Görüş əsnasında, söz alaraq çıxış edən icma üzvləri - Romella Qumbraşvili, Sveta Ağababayeva, Nikolay Toskoynov, Lida Kumsiyeva və başqaları, ilk növbədə, onlara yaradılan dinc, sabit, inkişaflı və yüksək şəraitə görə dövlət başçısı İlham Əliyevə dərin minnətdarlıqlarını birdiriblər. Qeyd etdilər ki, Azərbaycan milli və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların hərtərəfli inkişafını təmin edən demokratik ölkədir. Udin icmasından olan seçicilər uzun illər azərbaycanlılarla birgə yaşadıqları bu rayonda bir-birlərinin tədbirlərində iştirak edirlər, bu mükəmməl ənənəni illərdir qarşılıqlı şəkildə qoruyub- saxlayır və yeni nəslə ötürürlər.

İcma üzvləri Aqiyə xanıma bugünkü görüşün onlar üçün çox dəyərli olduğunu vurğulayıblar, ona qarşıdan gələn seçkilərdə uğurlar arzulayıblar.

**RÖVŞƏN RƏSULOV**
**Nəzakət ƏLƏDDİNQIZI**
**R.HÜSEYNOVA**

# Müxalifətə xarici qüvvələr də nifrət etməyə başlayır

**Siyasi proseslərə qatıldıqlarından, bu günə qədər müxalifət partiyaları və onların üzdə olan funksionerləri Azərbaycanın milli və dövlətçilik maraqlarına zərbə vurmaq üçün hər cür iyrənc vasitə və üsullardan istifadə etməyə çalışırlar. Müsavat başqanı Arif Hacılı Avropaya səfərləri zamanı azərbaycanlı mühacirlərlə görüşlərində onları Azərbaycanın dövlətçilik maraqlarına zərbə vurmağa təhrik edibsə, AXCP sədri Əli Kərimli ölkəmizə gələn beynəlxalq təşkilatların nümayəndələrinə hakimiyyət və xalqımız haqqında təhqiramiz və böhtan xarakterli informasiyalarla çıxış edib.**



Cəmil Həsənli, Gültəkin Hacıbəyli, İsa Qəmbər və digərləri də eyni ampluadan çıxış ediblər. Bu günlər ölkəmizə gələn Avropa İttifaqının seçki bürosunun nümayəndələri ilə görüşdə də Arif Hacılı, Cəmil Həsənli, Əli Kərimli və digərləri yenə də ənənələrinə uyğun olaraq, ölkəmizdə insan hüquqlarının pozulması, demokratiyanın zədələnməsi ilə bağlı şər və böhtan xarakterli məlumatlarla çıxış ediblər. Bu üzdəniraq müxalifət partiya sədrlərini xalqımıza və dövlətimizə qarşı düşmən mövqedən çıxış etməyə kimlər və hansı məqsədlə təhrik ediblər? "Yurddaş" partiyasının sədri Mais Səfərli müxalifətin dağıdıcı qanadının xarici maraqlı dairələrə yarınmaq üçün müxtəlif vasitələrdən yararlanmalarına baxmayaraq, istəklərinə tam nail ola bilmədiklərini söyləyib: "Azərbaycanın siyasi arenasında, doğrudan da, çox qəribəliklər var. Xüsusilə də, radikal müxalifət düşərgəsini nəzərdə tuturam. Bu düşərgədə mövcud olan partiyalar, doğrudan da, uzun illərdi ki, müxalifətdədirlər, bunların fəaliyyətini araşdıranda və dərindən baxanda, görürsən ki, onların sərgilədiyi davranışla siyasi fəaliyyət haqqında nəzəriyyələr arasında çox ciddi fərq var. Əslində isə, onların məşğul olduqları fəaliyyət siyasi fəaliyyət deyil. Çünki siyasi fəaliyyət tamamilə başqadır. Ümumiyyətlə, bu gün müxalifət partiyaları hər biri ayrı-ayrı şəxslərin ətrafında birləşiblər və onların maraqlarını ifadə edirlər. Bu gün o partiyalar demokratiyadan və insan haqlarından danışsalar da o partiyalarda idarəçiliyin demokratiya ilə heç bir əlaqəsi yoxdur. Yəni yuxarıda başqa tərəfindən qəbul edilən qərar aşağılara sırınır". M.Səfərlinin sözlərinə görə, əgər doğrudan da, bu partiyaların özlərinin də dediyi kimi, demokratizm təmin olunsaydı, çox yox bircə seçkini uduzduqlarına görə, o partiyada müzakirələr gedərdi və o partiyanın sədri ordan uzaqlaşdırılardı: "Amma biz bunun əksini görürük. Görürük ki, onlar sədrlikdən elə möhkəm yapışıblar ki, hətta o partiyadan gedəndə də, özlərini lider kimi saxlayırlar və bir başqasını ora başqan qoyurlar özləri isə bir lider kimi qalırlar və idarə edirlər kənardan. Sərgilədikləri "fəaliyyət" onlara heç bir uğur gətirmədi. Əslində, onlar getdikcə nüfuzdan düşməyə başladılar. Deməli olar ki, bu gün müxalifətin işi-gücü ancaq ağa qara demək və Azərbaycan dövlətinin fəaliyyətinə kölgə salmaqdan ibarətdir. Bu isə, haqlı olaraq, hiddətə və qəzəbə səbəb olur".

**GÜLYANƏ**

# Müxalifət Bəxtiyar Hacıyevin "birləşmək" təklifini rədd edir

## *Müsavatçılarla "ReAL"çılar" bir-birləri ilə savaş apararkən, digər müxalifətçilərə qarşı da çıxırlar*

*Müxalifətçi namizəd Bəxtiyar Hacıyevlə "ReAl" və Müsavat partiyaları arasında kəskin qarşıdurma yaşanmaqdadır. Belə ki, müvafiq seçki dairəsində bitərəf və hakimiyyət namizədlərinə qarşı birləşmək təklifini önə sürən B.Hacıyev, nəticədə, rədd olunub. Daha dəqiq desək, hər iki müxalifət partiyası ona qarşı kampaniya aparmağa başlayıb.*



### Hacıyev bəzi müxalif dairələrdən müəyyən dəstək aldığını da etiraf edib, amma əsas zərbəni, məhz Müsavatla "ReAl"a, onların "liderlərinə" endirib

Maraqlısı da budur ki, "realçılarla" müsavatçılar bir arada B.Hacıyevə qarşı çıxmaqla yanaşı, həm də bir-birləri ilə ən kəskin seçki intriqası yaşamaqdadırlar. Sosial şəbəkələrdə və mediada bu fakt özünü daha çox qabardır. Məhz bu təkzibdən sonra, B.Hacıyev müxalifət partiyalarını sərt şəkildə hədəfə alıb, üstəlik, onların heç bir resurslarının və şanslarının olmadığını bildirib. Sözügedən məsələ mediada da işıqlandırılıb. Misal üçün, V.Hacıyev bildirib ki, müxalifətçi rəqiblərin heç bir sistemi iş apara bilmir və bu isə, onların uduzma reallıqlarını açıq-aydın bəlli edir. Düzdür, Hacıyev bəzi müxalif dairələrdən müəyyən dəstək aldığını da etiraf edib, amma əsas zərbəni, məhz Müsavatla "ReAl"a, onların "liderlərinə" endirib.

### Bəxtiyar Hacıyev: "Seçkidən sonra bu partiyalarla bağlı fikirlərimi geniş yazacam"

"Bir neçə namizəd və partiya müsbət cavab verib" deyən müxalifətçi fəal bildirib: "Ancaq şansı, resursları, təşviqatı çox zəif olan, təşviqatın, təxminən, 10-cu günündə heç bir sistemli iş aparmayan, bunu bildikləri halda, ümumi və ölkə maraqlarını yox, dar partiya maraqlarını güdərək, addım atanlar da olur. Seçkidən sonra nəticələr açıqlansın, bu partiyalarla bağlı fikirlərimi geniş yazacam".

Onu da xatırladaq ki, B.Hacıyevin təklifini rədd edən hər iki partiya, hələ ki, onun ittihamlarına cavab verməyib. Ancaq gözləniləndir ki, qısa zamanda, xüsusilə, seçkilərdən sonra tərəflər arasındakı qarşıdurma şiddətlənəcək. Hər halda, buna bənzər məsələlər, yəni müxalifətçi namizədlər arasındakı qarşıdurmalar digər seçki dairələrində də müşahidə olunmaqdadır.

**Rövşən RƏSULOV**



# *Yenə cığalçılıq, yenə çuğulçuluq!*

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Seçkilərə getmək qərarını vermiş müxalifətin indi də şantaj və qarayaxma yolunu tutub, siyasi zəifliklərini ört-basdır etmək cəhdləri göz önündədir. Dəstək resurslarının olmaması, elektoratsızlıq və s. kimi məsələlərdə geridə qalan ənənəvi düşərgə təmsilçiləri, çox yəqin ki, uzun illərdir xidmət göstərdikləri müxtəlif xarici təşkilatlardan yetərincə sifarişlər alıblar. Əgər belə olmasa idi, bəlli xarici təşkilatlar, siyasiləşmiş QHT-lər son vaxtlar yenidən fəallaşaraq, "hesabatlar", "bəyanatlar" verib, demokratik seçki mühitini hədəfə almazdılar. Hədəfə alınan şəffaf seçkilər reallığını kölgədə qoymaq istəyənlər isə, məhz destruktivlik yolunu tutmuş, xalq tərəfindən dəstək ala bilməyən müxalifət düşərgəsidir. Hətta bəzən belə bir təəssürat yaranır ki, onlar heç də seçkilərə qalib gəlmək üçün deyil, əksinə, seçkilərə ləkə vurmaq üçün bu prosesə qatılmaq qərarını verirlər. Cığalçılıq, çuğulçuluq isə, artıq əminliklə deyə bilərik ki, bunların qanlarına hopub. Bir sözlə, qanları zəhərlənmiş siyasi buqələmunlar yığnağı yenə də iş başındadırlar.***

Maraqlısı isə budur ki, seçki prosesi bir çox ölkələrdə ideal şəkildə baş tutmur. Daha dəqiq desək, qüsur, çatışmazlıq, müəyyən neqativliklər bu gün özlərini "demokratiyanın beşiyi" kimi dünya ictimaiyyətinə sırıyan ölkələrdə də mövcuddur, hətta çoxluğu ilə seçilir. ABŞ-da Donald Trampın qalib gəlməsi məsələsi ətrafında səslənən müxtəlif iddialar, seçki müdaxiləri kimi hallar barədə indi də danışılmaqdadır, yaxud bu gün Fransada və s. Avropa ölkələrində də seçki maxinasiyaları mövcuddur. Yəni belə olan halda, dərhal Azərbaycanı hədəfə almaq marağının mövcudluğu bir sıra suallar yaradır. Sual oluna bilər ki, axı nəyə görə öz gözünüzdəki tiri görməyib, başqalarının gözündə tük axtarışına çıxmısınız? Niyə öz daxilinizdəki çatışmayan cəhətləri bir kənara qoyub, ya da problemlərinizi araşdırmamış dərhal Azərbaycanı hədəfə alırsınız? Və ya (!) Ermənistanda cərəyan edən və xalqı get-gedə daha kəskin narazı hala gətirən mövcud Paşinyan hakimiyyəti barədə bir kəlmə də olsun dəm vurmursunuz? Yoxsa Paşinyan hakimiyyətinin Soros dayısı vasitəsi ilə "məxməri inqilab" etməsi buna imkan vermir? Axı fakt budur ki, bu gün Ermənistan parlamentində qəbul edilən sərsəm qərarlar, qanunlara edilən düzəlişlər və bu düzəlişlərin repressiya xarakterli olması, xalqın marağına cavab verməməsi gerçəkliyə çevrilib! Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin sabiq rəisinə qarşı başladılan repressiyalara görə, ya da Konstitusiya Məhkəməsinin sədrinin siyasi təqiblərə məruz qalmasına görə kim cavab verməlidir? Əlbəttə ki, Paşinyan! Amma bu gün Azərbaycanda aparılan və dünyaya örnək hesab olunan siyasi, iqtisadi, sosial islahatlar, seçki və parlament islahatları, nədənsə, bəzilərinin gözlərinə iti ox kimi batmaqdadır. Onlara bu məsələdə çuğulluq edənlər isə sapı özümüzdən olan paslı "baltalardır". Amma bu "baltaların" heç birinin zərbəsi, təsir qüvvəsi ola bilməz. Bu qüvvənin qarşısını alan xalqın dövlətə, Prezidentinə bağlılığı faktorudur. Ona görə də, indi durub seçkilər ətrafında var-gəl edənlər anlamalıdırlar ki, bu dəfə də heç nə onların istədikləri kimi olmayacaq, məhz xalqın istədiyi kimi olacaq. Bax, onda cığalçılıqları qalsın bir tərəfə, çuğulçuluqlarına görə də cavab verməli olacaqlar. Həm millətə, xalqa, həm də xarici ağalarına. Ona görə ki, xarici ağalarının verdikləri növbəti sifarişləri də nəticəsiz qalacaq və hətta qalmağa başlayıb da...

# Onların "varlığı" və yoxluğu...

*Yaxud 1993-cü ildən indiyədək biabırçı seçki məğlubiyyətlərinə uğrayan radikalların gerçək üzü*

***Sirr deyil ki, uzun illərdir dağıdıcı müxalifət qalmaqallarla gündəmdə qalmağa müxtəlif və çoxsaylı cəhdlər göstərir. Lakin fakt budur ki, xarici havadarları vasitəsi ilə müxtəlif siyasi oyunbazlıqları radikallara heç bir siyasi üstünlük vermir. Əksinə, daxili didişmələr və qarşıdurmalar artır, ambisiyalar uğrunda savaşlar daha da şiddətlənir. Əslində, bu kimi halların digər səbəbi dağıdıcı müxalifət partiyalarında daxili islahatların keçirilməməsi və partiyaların yeni təşəbbüslərlə çıxış etməmələridir. Bunun da nəticəsi olaraq, müxalif partiyalar öz elektoratını, sosial və siyasi resurslarını tamamilə itiriblər. Bəziləri də, artıq seçki kampaniyası aparmağa gücləri çatmadığına və özünəinamsızlıqlarına görə, guya seçkiləri boykot edirlər və ya seçkilərə qatılanlar müxtəlif bəhanələrlə, şər-böhtan vasitələri ilə qarşılaşacaqları məğlubiyyət reallığını pərdələməyə cəhdlər göstərirlər.***



### Siyasi savadsızlıq və səbatsızlığın gerçəkliyi

Nəticədə, yenə də rüsvayçı durumdan kənara çəkilə bilmirlər. Onlar, bununla etiraf edirlər ki, siyasi savadsızlıq və səbatsızlıq, bilavasitə boylarına biçilmiş reallıqdır. Çünki seçkinin taleyini ayrı-ayrı partiyalar və şəxslər deyil, xalq müəyyənləşdirir. Xalqın isə bələlərinə inamları çoxdan tükənib. Daha bir fakt budur ki, tükənməyən və uzun illərə söykənən AXCP-Müsavat qarşıdurması müxalifətin parçalanmasını və zəif düşməsini şərtləndirən əsas amillərdəndir. Partiyadaxili savaşdan əlavə, bu iki partiya illərdir, birbirini sıradan çıxarmaqla məşğuldur. Mövzunun köhnəlmiş və çeynənmiş olmasına rəğmən, hər iki partiyanın rəhbərliyi hələ də qarşı tərəfi "satqın" ittihamı ilə atəşə tutur. Hər iki tərəf yenə də "satqınlıq", "xəyanətkar" ittihamı səbəbindən, qarşı-qarşıya dayanıb. Misal üçün, qısa tarixi ekskurs vasitəsilə 1998-ci il prezident seçkiləri dövrünü götürək. Xatırladaq ki, həmin ərəfələrdə müxalifət "SİDSUH" adlanan təşkilatda birləşmişdi. Lakin AXCP və Müsavat "vahid namizəd" məsələsində ümumi fikrə gələ bilmədi, nəticədə, qarşılıqlı ittihamlar ifrat həddə qədər inkişaf etdi. Nəhayət, biri digərinə güzəştə getməyən hər iki siyasi partiya bir-birini hakimiyyətə işləməkdə suçlayaraq, "boykot" taktikasını seçdi. Bununla da, "SİDSUH" adlı qurumun fəaliyyətinə son qoyulmuş olur.

"SİDSUH" - parçalanmanın əsasını qoyan "hərəkat" kimi müxalifətin rüsvayçılıq tarixinə yazıldı. Ənənəvi düşərgəni təmsil edən bir sıra partiyaların da cəmləşdikləri "DUH", "MKM", "Demkonqres", "Azadlıq", "Bizim Azərbaycan", "Qarabağ" və digər seçki blokları, eləcə də, birlikləri də eyni aqibəti yaşadılar. Beləliklə, illər boyu bu düşmən və bir-birilərinə patoloji nifrət edən partiyaları son nəticə etibarilə guya "Milli Şura" bir araya gətirib çıxardı - dağılmış "İctimai Palata"dan sonra...

### Fevralın 9-da keçiriləcək parlament seçkilərindən sonra bu gerçəklik özünü daha geniş siyasi diapazonda təsdiq edəcək

Heç də təsadüfi deyil ki, 1993-cü ildən indiyədək keçirilən bütün seçki proseslərində həmin qüvvələr biabırçı məğlubiyyətlərə uğrayıblar. Artıq məğlubiyyətləri ilə barışan AXCP-Müsavat başbilənləri Avropadan gələn ianənin azlığını nəzərə alıb, alver taktikalarını dəyişiblər. Yeni mühacir biznesinə girişiblər. Bununla bağlı hazırkı dövrə qədər bir çox maraqlı fikirlər də səsləndirilib. Məsələn, bəlli olub ki, dağıdıcı müxalifətin zaman-zaman keçirməyə cəhd göstərdikləri icazəli, yaxud icazəsiz etiraz aksiyaları onların heç də siyasi iddialarını təşkil etmək üçün düşünülməyib. Onlar bununla mühacir biznesini genişləndirmək istəyirlər. Çünki etiraz aksiyalarında yeni şəkillər çəkəcəklər və arayışlar alacaqlar. Birmənalı olaraq, belə bir qənaətə gələ bilərik ki, müxalifətin bu etiraz aksiyaları xaricdən sığınacaq almaq üçün nəzərdə tutulub və ötən ilin sonlarından başlayaraq, bu barədə kifayət qədər materiallar ictimaiyyətin diqqətinə çatdırılıb. Beləliklə, "müxalifətin" dırnaqarası "varlığı" olsa da, onun nə siyasi, nə sosial nə də başqa məzmunlarda dövlətə, xalqa heç bir səmərəsi olmayıb, yoxdur və olmayacaq da. Hətta xarici havadarları belə, onlardan istədikləri qədər yararlana bilmirlər. Çünki belə dırnaqarası siyasi təşkilatlar həm də xalqdan təcrid olunmuşlardırlar. Xalq isə hakimiyyətin və dövlətin yanındadır. Məhz bu fakt radikalların siyasi ölüm prosesini sürətləndirir. Fevralın 9-da keçiriləcək parlament seçkilərindən sonra bu gerçəklik özünü daha geniş siyasi diapazonda təsdiq edəcək.

***Rövşən NURƏDDİNOĞLU***

# Britaniya mediası çətin durumda

*Jurnalist ofisləri bağlanılır, 450 nəfər işdən çıxarılır*

***Bu günlərdə məlum olub ki, Böyük Britaniyanın və dünyanın ən nüfuzlu media qurumlarından olan BBC-də kütləvi ixtisarlar baş verəcək. Bu qurumun Beynəlxalq xəbərlər şöbəsi, "Nevsnight" və "Radio 5 live" adlı radioyayım qurumu əsas olaraq, digər xidmətləri də bu ixtisarlarda tərkib yer alacaq. Bildirilir ki, 2020-ci ildə BBC-nin bir sıra ölkələrdəki jurnalist ofisləri qapadılacaq.***




### Bu, media qurumunun yaşadığı iqtisadi böhranla bağlıdır?

Britaniya mediası yazır ki, hətta şirkətdə ən çox əməkhaqqı alan və tanınmış aparıcıların da işdən çıxarılacağı qərarı var. "450 nəfərin işdən çıxarılması BBC-yə imkan verəcək ki, 80 milyon funt sterlinq maliyyəyə qənaət etsin" deyə yayılan məlumatdan, belə bir nəticə çıxarmaq olar ki, bu, media qurumunun yaşadığı iqtisadi böhranla bağlıdır. Qeyd edək ki, BBC, həmçinin, Böyük Britaniyanın ictimai televiziyası hesab olunur.

***Rövşən***



## "Şaban"ın evi yerlə-yeksan oldu

Türk sinemasının unudulmaz ismi, komediya aktyoru, "Şaban" ləqəbi ilə tanınan mərhum Kamal Sunalın Elazığda baş verən və 41 nəfərin ölümü ilə nəticələnən güclü zəlzələ nəticəsində doğulduğu evi yerlə-yeksan olub. SİA "Takvim"ə istinadən xəbər verir ki, Malatyanın Doğanyol rayonuna bağlı Gökçe kəndində yerləşən ev tamamilə dağılıb.

***Rövşən***

## "Nar+" tətbiqindən istifadə edənlərin sayı 100 mini ötüb

***Təqdim etdiyi telekommunikasiya xidmətlərini hər zaman müştərilərin ehtiyaclarını nəzərə alaraq formalaşdıran "Nar", artıq 5 aydır ki, "Nar+" tətbiqini abunəçilərinin istifadəsinə verib. Hesaba rəqəmsal nəzarət imkanı verən bu tətbiq artıq "Nar" abunəçilərinin şəffaf müştəri təcrübəsinin ayrılmaz bir hissəsinə çevrilib. Belə ki, bu qısa müddət ərzində tətbiqdən qeydiyyatdan keçənlərin sayı 100.000-i ötüb.***




Abunəçilər "Nar+" vasitəsilə bir neçə saniyə ərzində özlərinə ən uyğun tarifə qoşula, mövcud tarifi dəyişə, yeni internet paketi sifariş edə, bonuslarını yoxlaya və yeniləyə bilirlər. Tətbiqlə sərfiyyat haqqında izahlı qaiməni də şəffaf şəkildə əldə etmək mümkündür. Tətbiqin daha bir unikal xüsusiyyəti eyni anda vahid platforma üzərindən 5-dək hesaba nəzarət etmə imkanı verməsidir. Belə ki, əgər bir neçə şəxsi "Nar" nömrə istifadə edirsinizsə və ya yaxınlarınızın hesabında əməliyyat aparmaq lazımdırsa, tətbiqdən çıxmadan bir kliklə bir hesabdan digərinə keçid edə bilərsiniz. Qeyd edək ki, "Nar+" tətbiqini AppStore və PlayStore-dan yükləyə bilərsiniz. Tətbiq haqqında daha ətraflı məlumatı https://www.nar.az/plus/ səhifəsindən əldə etmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,7 %-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## "Nar" görmə məhdudiyyətli insanlar üçün audio-kitablar hazırladı

***Görmə məhdudiyyətli insanlara dəstək məqsədilə "Nar" və "Radio Antenn"in birgə həyata keçirdiyi "Canlı kitab" layihəsi artıq yekunlaşıb. 3 ay müddətində "Radio Antenn" 101 FM-in efirində Azərbaycan və dünya ədəbiyyatının Azərbaycan dilinə tərcümə olunmuş əsərləri səsləndirilib və audio-kitablar şəklində yazılıb. Yaddaş kartlarına köçürülmüş audio-kitablar Azərbaycan Gözdən Əlillər Cəmiyyəti, Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5№-li Respublika xüsusi internat məktəbi və Respublika Gözdən Əlillər kitabxanasına təqdim edilib. Bununla da "Nar"ın dəstəyilə yaradılan səsli ədəbiyyat kitabxanası görmə məhduyyəti olan şəxslər üçün daha əlçatan olub.***



"Nar"ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundovun sözlərinə görə, layihənin əsas məqsədi görmə məhdudiyyətli insanların ədəbiyyata marağının artmasına dəstək olmaqdır: "Nar" fiziki məhdudiyyətli şəxslərə dəstək və insanların elmə marağının artması istiqamətində davamlı olaraq sosial layihələr icra edir. "Canlı kitab" layihəmiz ilə görmə məhdudiyyətli insanların Azərbaycan dilində mütaliəsi üçün məhdudiyyətin aradan qalxmasına töhfəmizi verməyə çalışdıq. Düşünürük ki, yaradılan audio-kitabxana həm görmə məhdudiyyəti olan şəxslərə, həm də ədəbiyyatı sevən insanlara yararlı olacaq. "Nar" olaraq fiziki məhdudiyyətli insanlara dəstək istiqamətində gələcəkdə də əhəmiyyətli layihələr icra etməkdə davam edəcəyik".

Qeyd edək ki, 3 ay müddətində "Radio Antenn" 101 FM-in canlı efirində C.London, Q.Q.Markes, G.De Mopassan, H.Murakami, A.Çexov, C.Məmmədquluzadə, Y.V.Çəmənzəminli, M.C.Paşayev, Ə.Haqverdiyev, İ.Məlikzadə, K.Abdulla və digər yazarların müxtəlif əsərləri tanınmış aktyorlar, qiraət ustaları tərəfindən səsləndirilib. "Canlı kitab" layihəsinin əsas məqsədi görmə məhdudiyyətli şəxslər üçün mütaliə imkanı yaratmaq və insanların ədəbiyyata marağının artmasına dəstək olmaqdır.

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

31 yanvar

# Səs

Son səhifə



## "Liverpul"dan daha bir tarixi rekord!

"Liverpul" klub tarixinin rekordunu müəyyənləşdirib. Qol.az xəbər verir ki, İngiltərə Premyer Liqasında 18-ci turdan təxirə salınmış oyunda "Vest Hem"i 2:0 hesabı ilə məğlub edən "qırmızılar" bu mövsümdə Premyer Liqadakı bütün komandalara qalib gəlib.

Mersisayd klubu tarixində ilk dəfə bir mövsümdə çempionatdakı bütün rəqiblərini məğlub etməyi bacarıb. Qeyd edək ki, Premyer Liqada 24 turdan sonra 23 qələbə ilə 70 xal toplayan "Liverpul" turnir cədvəlinin liderdir və ən yaxın izləyicisi "Mançester Siti"ni 19 xal qabaqlayır.



## Çində koronavirusdan ölənlərin sayı 170-ə çatdı!

Çində koronavirusun indiyədək aşkar edilməmiş ştammına (2019-nCoV) yoluxanların sayı 7 min 742, bu virus səbəbindən ölənlərin sayı isə 170 nəfərə çatıb.

Çin Dövlət Səhiyyə Komissiyasının məlumatına görə, virusa yoluxmaqda şübhəli bilinənlərin sayı 12 min 167 nəfərə çatıb. İndiyədək 130 nəfər sağalaraq xəstəxananı tərk edib. Yoluxma hallarının 4 min 586-sı və ölüm hallarının 162-si virusun aşkarlandığı Xubey vilayətində qeydə alınıb. Çindən başqa, Tailand, Cənubi Koreya, Yaponiya, Vyetnam, Sinqapur, ABŞ, Malayziya, Fransa, Avstraliya, Nepal, Kanada, Almaniyada, Şri-Lanka, Kamboca, Birləşmiş Ərəb Əmirlikləri və Finlandiyada ümumilikdə 77 nəfərin virusa yoluxması təsdiqlənib. Həmin xəstələrin əsas hissəsi ya Xubey sakinləri, ya da bu yaxınlarda Xubeydə səfərdə olanlardır.

## Linzalar və onun növləri

Görünüşdə fərqlilik yaratmaq üçün istifadə olunan vasitələrdən biri də linzalardır. Məhz linzaların sayəsində görməni yaxşılaşdırmaqla yanaşı, fərqli gözəlliyə sahib olmaq mümkündür. Rəngli və optik linzaların müxtəlif növləri var. AZƏRTAC xəbər verir ki, Bakı Baş Səhiyyə İdarəsinin Baş Oftalmoloqu Sevda Bəşirova bu barədə deyib: "Gözlərin rəngini dəyişmək, onlara parıltı vermək, müxtəlif çalarların alınmasına nail olmaq üçün istifadə edilən linzalar həm də eynəklərə bənzəyir. İstifadə müddətinə görə günlük, aylıq və üç aylıq çeşidləri var. Günlük olanları bir dəfə istifadə etdikdən sonra mütləq atmaq lazımdır. Linzaların optik və kosmetik növləri var. Bundan başqa bayramlarda və özəl günlərdə göz rənginə uyğun dəyişmək üçün istifadə olunan karnaval linzalar da olur. Bəzi kosmetik linzalar da var ki, onlar həm də optikdir. Gigiyena ən azı iki-üç gündən bir həmin linzaların suyunu vaxtlı-vaxtında dəyişməyi tələb edir, əks halda linzalar quruya və gözü incidə bilər".



## Bu günə USD/AZN rəsmi məzənnəsi

Azərbaycan Mərkəzi Bankı (AMB) yanvarın 31-nə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. AMB-dən AZƏRTAC-a bildirilib ki, bankın yanvarın 31-dən etibarən USD/AZN rəsmi məzənnəsi 1,7000 manat səviyyəsində müəyyən olunub.





## Dubay üçün rekord: 16,73 milyon turist!

**Dubay ötən il rekord sayda - 16,73 milyon turist qəbul edib. AZƏRTAC "Dubai Media Office" təşkilatına istinadla xəbər verir ki, bu şəhərə səyahət edənlərin əksəriyyəti Səudiyyə Ərəbistanı, Böyük Britaniya, Çin və Rusiya vətəndaşlarıdır. Qeyd olunub ki, 2019-cu ildə turistlərin sayında 5,1 faiz artım olub, cari ildə isə bu rəqəmi 20 milyon nəfərə çatdırmaq planlaşdırılır.**

Dubay Əmirliyinin Turizm Departamentinin rəhbəri Saed əl-Marri bildirib ki, bu şəhər 2020-ci ildə qlobal turizm sənayesində dominantlığı davam etdirmək niyyətindədir. O əlavə edib ki, ötən il Səudiyyə Ərəbistanından Dubaya 1,6 milyon turist gəlib. Əmirliyə gələn britaniyalıların sayı 1,2 milyon, çinlilər 989 min, rusiyalılar isə 728 min olub. Dubay rəsmisi vurğulayıb ki, şəhərə daha çox turist cəlb etmək məqsədilə çoxillik vizalar da tətbiq olunub.

## Yaponiyada avtomatlaşdırılmış avtobuslar işə düşür

***Tokionun yaxınlığında yerləşən Sakai şəhərində tezliklə ödənişsiz və avtomatlaşdırılmış avtobus marşrutu fəaliyyətə başlayacaq. AZƏRTAC Yaponiya KİV-lərinə istinadla xəbər verir ki, həmin avtobus hərəkət zamanı xəstəxana, məktəb və digər bu qəbildən olan obyektləri birləşdirəcək. Yaponiyada əhalinin sürətlə qocalması xüsusən kiçik yaşayış məntəqələrində nəqliyyatın hərəkətinin təşkilində problemlər yaradır.***

Bunu nəzərə alan İbaraki prefekturasının Sakai şəhər administrasiyası "SB Drive" şirkəti ilə birlikdə belə bir sistemin tətbiq edilməsi barədə qərar qəbul edib. Ümumi tutumu 11 nəfər üçün nəzərdə tutulan həmin avtobusların apreldən hərəkətə başlaması və şəhər daxilində 5 kilometr uzunluqda dairəvi yol boyunca hərəkət etməsi nəzərdə tutulur. Qeyd edək ki, sürücü oturacağının və rolun olmadığı həmin avtobuslar məsafədən idarə ediləcək. Bununla yanaşı, avtobuslarda hərəkəti izləyən və fövqəladə vəziyyət yaranacağı təqdirdə idarəetməni öz üzərinə götürən nəzarətçi də olacaq.




**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**